www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 10 mart 2016-cı il Cümə axşamı № 55 (6376) Qiyməti 60

**Xəbər**

**Əfv Komissiyasının son iclası keçirildi; siyahı prezidentə göndərildi**

yazısı səh.3-də

## Gündəm

**“Stratfor”dan və eks-səfirdən yeni müharibə xəbərdarlığı - böyük layihələr risk altında?**




“Rusiyanın cavabı 8 il öncə Güney Qafqazda verilməli idi”; Türkiyə ilə qarşıdurma ehtimalı energetik projelərdə öncül yer alan Azərbaycanı da çevik siyasət yürütmək zorunda qoyur...

yazısı səh.8-də

**Prezident yanında Təhsil üzrə Komissiya ləğv olundu**

yazısı səh.2-də

**Xaləddin İsgəndərovun yaratdığı süni təpələr sökülür**

yazısı səh.4-də

**“Kreslosu silkələnən” icra başçıları- siyahıda kimlər var...**

yazısı səh.7-də

**“Polislə əməkdaşlıq” dünyanın bütün ölkələrində, müxtəlif formalarda var imiş**

yazısı səh.13-də

**Rza Zərrabın iranlı iş ortağı Babək Zəncani barədə bilinməyənlər**

yazısı səh.12-də

**Putin və Sərkisyan Moskvada Qarabağı müzakirə edəcəklər**

yazısı səh.11-də

**Avropa İttifaqı ilə Türkiyə arasında viza rejimi ləğv edilir**

yazısı səh.9-da

**Dolların məzənnəsi 1,63 manatı ötdü**

yazısı səh.12-də

**“Azəryolservis”in adı dəyişdirildi**

yazısı səh.2-də

**Moskvadakı terror həyəcanının pərdəarxası...**

yazısı səh.9-da

**Bakıda dəm qazı ana və 3 yaşlı oğlunu öldürdü**

yazısı səh.14-də

## Maliyyə nazirimiz haqda şok iddia

# PUTİNİN TƏLƏBƏ YOLDAŞI SAMİR ŞƏRİFOVU “3 QAT AGENT” ELAN ETDİ

Sabiq sovet kəşfiyyatçısı Yuri Şvetsə görə, Şərifov eyni vaxtda Rusiya, ABŞ və Türkiyə xüsusi xidmətlərinə işləyir; onun “verbovka” olunmasında nazir müavini Xələf Xələfovun da adı çəkilir; **Azərbaycan XİN:** “Bu cür məsələləri şərh etmirik...”




yazısı səh.5-də

## Ali Məhkəmə “Qara kəmər”in ağ yalanlarının açılmasına “yox” dedi

Hacı Məmmədovun həqiqətləri deməsi üçün daha bir şansı əlindən alındı; 2005-in bu günündə MTN-in keçirdiyi səs-küylü əməliyyatın 11 ili tamam oldu

yazısı səh.6-da



*İqbal Ağazadə:*

**“Əgər qeyri-leqal kazinolar varsa, leqalların olması elə bir təhlükə deyil”**

yazısı səh.7-də



**“Pərviz Həşimlinin Novruzda əfv olunacağına ümid edirik”**

yazısı səh.2-də



*Elxan Süleymanov:*

**“AŞ PA-da işğalçılığının təsbiti Ermənistanı təlaş içərisində saxlayır”**

yazısı səh.11-də



# Prezident yanında Təhsil üzrə Komissiya ləğv olundu

## Ölkə başçısı "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"nı təsdiq edib

**Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiyanın yaradılması haqqında" 2005-ci il 30 may tarixli sərəncamını ləğv edib. AzərTAc-ın xəbərinə görə, bu barədə prezidentin imzaladığı sərəncama əsasən, "Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiyanın yaradılması haqqında" sərəncam ləğv olunub.**

Prezidentin digər sərəncamları ilə "Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiyanın yeni tərkibinin təsdiq edilməsi haqqında" 2011-ci il 7 fevral tarixli və 2013-cü il 24 may tarixli sərəncamlar da ləğv olunub.

Həmçinin prezidentin başqa sərəncamı ilə "2011-2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiya"nın hazırlanması haqqında" 2011-ci il 11 iyul tarixli sərəncamını da ləğv edib.

APA-nın məlumatına görə, bu sərəncam Azərbaycan prezidentinin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiq edilməsi haqqında" 2013-cü il 24 oktyabr tarixli 13 nömrəli sərəncamına uyğun olaraq ləğv edilib.

İlham Əliyev eyni zamanda 19 yanvar 2015-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"nı təsdiq edib.

Tədbirlər Planında 2015-2020-ci illərdə təhsilin inkişafı sahəsində həyata keçiriləcək tədbirlər əksini tapıb. Nazirlər Kabineti Azərbaycan prezidentinə strategiyanın icrasının gedişi barədə hər il üzrə hesabat təqdim edir.

# "Azəryolservis"in adı dəyişdirildi

**Prezident İlham Əliyev "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyəti haqqında fərman imzalayıb. Fərmana əsasən "Azəryolservis" Açıq Səhmdar Cəmiyyətinin adı dəyişdirilərək "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyəti adlandırılıb.**

# Ünvanlı sosial yardım almaq üçün yeniliklər...

**Bu ilin fevralından tətbiq edilən ünvanlı dövlət sosial yardımı üzrə elektron müraciət və təyinat sistemi prosesinə məmur müdaxiləsi aradan qaldırılıb. Digər tərəfdən, əvvəllər kağız üzərində rəsmi müraciət edilməsi üçün vətəndaşlar ayrı-ayrı qurumlara müraciət edərək müxtəlif arayış və sənədlər toplamalı olurdularsa, artıq bu təcrübəyə son qoyulub.**

Bunu virtualaz.org saytına açıqlamasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Elman Babayev bildirib.

Onun sözlərinə görə, vətəndaş artıq onun ailəsinə yardım təyin olunması üçün hansısa məmura müraciət etməyə ehtiyac olmadığını bilməlidir: "Hazırda vətəndaşlar ünvanlı dövlət sosial yardımının alınması üçün elektron qaydada müraciət etməyə maraq göstərirlər və qısa müddət ərzində bu xidmətdən yararlananların sayı kifayət qədərdir".

E.Babayev bildirib ki, bu sistemin yeni olmasına görə bir qism vətəndaşların ondan istifadə edə bilmələrində müəyyən çətinliklər ola bilər. Hər kəsin elektron qaydada müraciət etmək üçün müvafiq avadanlıqlarının, həm də internetə çıxışının olmaması ehtimalı nəzərə alınıb. İlkin mərhələdə bütün poçt şöbələri də bu məsələ ilə bağlı nazirliyə elektron müraciətin göndərilməsində zəruri hallarda vətəndaşlara kömək edirlər.

"Yeni insanlar rahat şəkildə gəlib poçt şöbələrində onlar üçün ayrılmış kompüter avadanlıqlarından və poçt işçilərinin texniki köməyindən istifadə edərək elektron müraciətlərini edirlər və bu sahədə heç bir problem özünü göstərmir", - deyə E.Babayev əlavə edib.

Şöbə rəhbəri hər bir elektron müraciətə VEMTAS-da baxılaraq 15 iş günü müddətində cavablandırılacağını qeyd edib. E.Babayev əlavə edib ki, bu avtomatlaşdırılmış sistem elektron hökumət portalı üzərində çox geniş şəbəkəni əhatə edir: "Yeni burada müraciət edən ailələrə aid lazımi məlumatları elektron qaydada əldə etmək çün 20-dən çox qurumun informasiya resurslarına avtomatik in - teqrasiya həyata keçirilir. Vətəndaşlar elektron şəkildə müraciət zamanı "Ərizə-bəyannamə"ni doldurarkən səhv, yanlış məlumatlar daxil etdikdə, bu dərhal üzə çıxır. Çünki onların təqdim etdikləri məlumatlarla aidiyyəti qurumlarda onlar barədə olan rəsmi məlumatlar əldə edilərək yoxlanılır, uyğunsuzluq aşkar edilərsə, yardımın təyin olunmasından sistem tərəfindən imtina qərarı qəbul olunur. Belə qərar verildiyi təqdirdə vətəndaşa bu barədə göndərilən elektron məlumatda da imtinanın səbəbləri göstəriləcək".

Sistem tərəfindən vətəndaşa yardımın təyin olunması ilə bağlı qərar qəbul olunursa, bu barədə ailəni təmsil edən şəxsə göndərilən məlumatda yardımın məbləği, plastik kartı hansı bankdan ala biləcəyi göstəriləcək. Yardım təyin olunub-olunmaması barədə məlumat vətəndaşın "Ərizə-bəyannamə"də qeyd etdiyi əlaqə vasitələrinin birinə göndəriləcək.

# Zakir Həsənov: "Ermənistan bölgədə sülhə ciddi təhdiddir"

**Martın 9-da Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan NATO-nun Müttəfiq Transformasiya Komandanının müavini general Mirko Zulianinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, regiondakı hərbi-siyasi vəziyyətə toxunan Z.Həsənov işğalçı Ermənistanın bölgədə sülhə, sabitliyə və təhlükəsizliyə ciddi təhdid olduğunu, məhz bu səbəbdən də ölkəmizin müdafiə resurslarının əksər hissəsinin düşmən tərəfinin təcavüzkar siyasətinin qarşısının alınmasına yönəldiyini diqqətə çatdırıb.

Azərbaycanın NATO-nun tərəfdaşı olduğunu vurğulayan müdafiə naziri alyansın Cənubi Qafqazda təhlükəsizliyə dair tutduğu prinsipial və davamlı mövqeyinin Avroatlantik təhlükəsizliyin bölünməzliyi məsələsini gücləndirdiyini, regional sülh və sabitlik üçün mühüm əhəmiyyət kəsb etdiyini xüsusi qeyd edib.

NATO-Azərbaycan əlaqələrini yüksək qiymətləndirən general M.Zuliani Əfqanıstandakı əməliyyatlar çərçivəsində Azərbaycan sülhməramlılarının beynəlxalq təhlükəsizliyə verdiyi töhfəyə, Əməliyyat İmkanları Konsepsiyası proqramında fəal iştirak etdiyinə, Transformasiya Komandanlığı Qərargahında təmsilçiliyə və ümumilikdə uğurlu əməkdaşlığa görə Azərbaycan tərəfinə minnətdarlığını bildirib.

Görüşdə Azərbaycan ilə NATO arasında mövcud proqramlar daxilində əməliyyat, təlim, treninq, hərbi təhsil, təcrübə mübadiləsi və digər sahələr üzrə tərəfdaşlıq məsələləri, həyata keçirilən layihələr, əlaqələrimizin hazırkı vəziyyəti və inkişaf perspektivləri barədə geniş fikir mübadiləsi aparılıb.



# "Pərviz Həşimlinin Novruzda əfv olunacağına ümid edirik"

**"Pərviz Həşimlinin Novruzda əfv olunacağına ümid edirik". Bu sözləri lent.az-a jurnalistin atası Kamran Həşimov deyib.**

O bildirib ki, bu il dəfələrlə Pərviz Həşimli ilə bağlı prezidentə müraciət edib: "Bildiyiniz kimi, Pərvizi şərləyərək həbs etdirən sabiq nazir Eldar Mahmudov və intihar edən İlqar Əliyev olub. Pərviz yazılarında həmişə MTN- in elədiyi əməlləri ortaya qoyub. Ona görə, onu şərləyib həbs etdirdilər. Pərvizin və onlar tərəfindən şərlənən insanların hamısının ahı onları tutdu. Mən ümid edirəm ki, Novruz bayramı ərəfəsində cənab prezidentimiz İlham Əliyev humanistlik prinsiplərini rəhbər tutaraq Pərvizi əfv edəcək".

Kamran Həşimov onu da qeyd edib ki, Pərvizin özü də, ailəsi də prezidentə müraciət edib.

Qeyd edək ki, P. Həşimli ötən il sentyabrın 17-də Milli Təhlükəsizlik Nazirliyinin (MTN) əməkdaşları tərəfindən həbs edilib. Hansı ki, onun həbsini həyata keçirənlər özləri cinayətkar əməllərinə görə həbs ediliblər. O, Cinayət Məcəlləsinin 206.3.2-ci (qaçaqmalçılıq) və 228.2.1-ci (qanunsuz olaraq odlu silah əldə etmə, saxlama) maddələri ilə ittiham olunub.

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 8 il müddətinə azadlıqdan məhrum edilib.

# NATO nümayəndə heyəti Azərbaycanda hərbi hissələrdə olub



**Azərbaycanda rəsmi səfərdə olan NATO-nun Müttəfiq Transformasiya Komandanının müavini, general Mirko Zuliani rəhbərlik etdiyi nümayəndə heyəti ilə birlikdə martın 9-da Hərbi Dəniz Qüvvələrinin bazasında olub.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, qonaqlar Hərbi Dəniz Qüvvələrinin rəhbərliyi tərəfindən qarşılanaraq ərazi ilə tanış olublar. NATO nümayəndə heyətinə hərbi-dəniz bazasının yaranma tarixi, strukturu, fəaliyyəti, hərbi gəmilərin təyinatı və digər məsələlərə dair ətraflı məlumat verilib.

Sonra general M.Zulianinin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin sülhməramlı taborunda olub. Burada onlara şəxsi heyətin müxtəlif ölkələrdəki beynəlxalq missiyalarda icra etdikləri tapşırıqlar, təminat və təchizatı, bölmələrin hazırlıq sistemi, o cümlədən sülhməramlı taborun fəaliyyəti barədə məlumat çatdırılıb.

# Vəzifəli şəxslərin qanunsuz əməlləri ifşa edildi

**"Alafarah LTD" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən bir sıra yuyucu maddələrin saxta istehsalına dair İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətindən daxil olmuş məlumat Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.**

Bu barədə müsavat.com-a Baş Prokurorluğun mətbuat xidmətindən məlumat verilib. Xəbərdə qeyd edilir ki, araşdırmalar zamanı cəmiyyətin vəzifəli şəxsləri vəzifə səlahiyyətlərindən sui-istifadə edərək özləri və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədi ilə insan sağlamlığı üçün ziyanlı maddələrdən istifadə olunmaqla mövcud standartların tələblərinə uyğun gəlməyən ölçüdə və çəkidə, habelə xarici ölkələrdə istehsal edilməsi adı ilə saxta qablaşdırılmış "BOÇ", "Blanco", "Formil", "W5", "AFAMİA" və "Bleacher" kimi yuyucu maddələri istehsal etməklə istehlahçılara xeyli miqdarda ziyan vurmalarına şübhələr üçün əsaslar olduğundan fakta görə Cinayət Məcəlləsinin 200.1 (istehlakçıları aldatma və ya pis keyfiyyətli məhsul istehsal etmə və satma) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb.

Hazırda cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

## "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur

# "MTN işi" ilə bağlı tutulanların həbs müddəti uzadıldı

**"MTN işi" ilə bağlı başlanılan cinayət işi üzrə saxlanılan şəxslərin həbs müddəti uzadılıb.**

APA-nın məlumatına görə, Səbayel rayon Məhkəməsi həmin cinayət işi üzrə saxlanılan 20-dən çox şəxsin barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddətinin iyul ayına kimi uzadılması barədə qərarlar qəbul edib.

Qeyd edək ki, cinayət işi üzrə istintaqın müddəti də uzadılıb. Bununla bağlı baş prokuror Zakir Qaralov tərəfindən qərar qəbul edilib. Qərara əsasən, istintaqın müddəti iyunun 17-dək artırılıb.

Baş Prokurorluğun "MTN işi" ilə bağlı yaydığı məlumata görə, bir müddət əvvəl ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) ayrı-ayrı vəzifəli şəxsləri tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və vəzifə səlahiyyətlərini aşma faktları ilə bağlı cinayət işi üzrə 21 şəxs Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək, 19 şəxs barəsində həbs qətimkan tədbiri, 1 nəfər barəsində başqa yerə getməmək haqqında iltizam-qətimkan tədbiri seçilib, istintaqdan yayınan 1 şəxs barəsində isə həbs-qətimkan tədbiri seçilməklə axtarış elan edilib.

Cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Bu arada həmçinin, Bakı Apelyasiya Məhkəməsində keçmiş MTN generalı Akif Çovdarov barəsində seçilmiş həbs qətimkan tədbirinin müddətinin uzadılmasından verilən apellyasiya şikayətinə baxılıb.

Lent.az-a məlumat verən vəkil Kamandar Nəsibov bildirib ki, Akif Çovdarovun verdiyi şikayət təmin edilməyib və Səbayel Rayon Məhkəməsinin çıxardığı qərar qüvvədə saxlanılıb.

## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Novruz bayramı yaxınlaşdıqca, məhbus ailələrində əfv həyəcanı da artır. 19-20 mart tarixlərinin şənbə-bazar günləri olduğunu düşünsək, Novruz əfvinin 18-də veriləcəyi ehtimal olunur. Əfv Komissiyasının iclaslarının intensiv keçirilməsi də sərəncamın bayramdan öncə veriləcəyi anlamına gəlir.**



Rəfiqə İsayeva

# Əfv Komissiyasının sonuncu iclası keçirildi; siyahı prezidentə göndərildi

## Rauf Mirqədirovun anası ölkə başçısına müraciət etdi; bayram yaxınlaşdıqca, əfv də yaxınlaşır...





**Əliməmməd Nuriyev:** "Təsirlərinin olduğunu göstərmək üçün mətbuat orqanlarına məlumatlar sızdırırlar..."
**Səidə Qocamanlı:** "...Sərəncamın imzalanmasına stop qoyulub"

Əfv öncəsi əsas narahatlıq doğuran məsələlər də var. Yeni il əfvi öncəsi Qərbdən gələn təzyiqlərin indi də təkrarlana biləcəyi ehtimalı hər kəsi ciddi narahat edir. Amma Əfv Komissiyası və İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvlərinin əfvlə bağlı ümidverici açıqlamaları Novruza olan inamı artırır. Xüsusilə Əfv Komissiyasının yeni tərkibinin formalaşdırılması əfv yolunda ümid yaradan amillərdən biridir.

Qeyd edək ki, martın 9-da Əfv Komissiyasının növbəti iclası keçirilib. İclasda məhbuslarla bağlı müraciətlərə baxılıb, bir sıra əfvlə bağlı məsələlər müzakirə edilib. Bu iclasın qurumun əfv öncəsi son iclası olduğu və artıq siyahının prezidentə göndərildiyi bildirilir.

**Siyasi məhbuslardan "Ayna Zerkalo" qəzetinin əməkdaşı Rauf Mirqədirovun anası əfv qabağı növbəti dəfə ölkə başçısına oğlunun azad edilməsi xahişi ilə müraciət edib:** "Prezidentimiz cənab İlham Əliyevə yazdım ki, məni qəbul etsinlər, dərdimi dinləsinlər. İlk başda prezident İlham Əliyev və Azərbaycanın birinci xanımı Mehriban Əliyevadan, ictimaiyyətdən xahiş edirəm ki, Novruz bayramı ilə bağlı veriləcək əfv sərəncamına oğlum Raufun da adını salsınlar".

**Əfv Komissiyasının yeni üzvlərindən olan Əliməmməd Nuriyev "Yeni Müsavat"a açıqlamasında prezidentin səlahiyyətində olduğuna görə əfv gününü ölkə başçısının müəyyənləşdirdiyini söylədi:** "Bayram ərəfəsində əfvin veriləcəyini istisna etmirəm. Komissiyaya çoxsaylı müraciətlər olub. Əksəriyyətinə indiyə qədər baxılıb. Müvafiq qərarlar qəbul edilir. Əfv Komissiyası tərəfindən hazırlanan qərarlar tövsiyə xarakteri daşıyır. Son anda ölkə başçısı tərəfindən hər hansı bir şəxsin əfv edilməsi üçün qərar qəbul edilir".

**Əfv Komissiyasının üzvü bayramqabağı Qərbdən gələ biləcək təzyiqlərə də toxundu:** "Hər hansı bir təzyiqin əhəmiyyəti yoxdur. Bunu indiyə qədər görmüşük. Prezidentin səlahiyyətində olan məsələyə hansı təzyiq təsir edə bilər? Bəzi vaxtlarda ölkə başçısının əfvlə bağlı açıqlamaları, eləcə də bu istiqamətdə işlər gedən zaman guya öz təsirlərinin olduğunu göstərmək üçün nəzarətləri altında olan mətbuat orqanlarına təzyiqlərin olması barədə məlumatlar sızdırırlar. Bəzi vəzifələri şəxslər də bu istiqamətdə fikirlər səsləndirirlər. Amma nəzərə alaq ki, ölkə başçısı xalqın iradəsini əsas götürür, özünün konstitusiya səlahiyyətlərindən istifadə edir. Prezident daim o fikri səsləndirib ki, hər bir vətəndaşın prezidentiyəm. Qərarlarını da buna uyğun qəbul edir. Kənar təsirlərin necə olmasından asılı olmayaraq".

**Qurumun xanım üzvü, deputat Məlahət İbrahimqızı da fəv gözlədiklərini qeyd edib:** "Biz də bayram ərəfəsində əfv sərəncamı olacağını gözləyirik. Əfv sərəncamı cənab prezidentin səlahiyyətindədir. Hər dəfə olduğu kimi ümid edirik ki, bu dəfə də çoxsaylı insanı əfv edəcək".

**Onun sözlərinə görə, Əfv Komissiyasına yüzlərlə müraciət daxil olub. Komissiya mütəmadi olaraq müraciətlərə baxır.**

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Novella Cəfəroğlu bayram axşamı əfv sərəncamının verilmə ehtimallarının yüksək olduğunu qeyd etdi:** "Artıq Əfv Komissiyası indiyə qədər bir neçə dəfə iclasını keçirib. İşlər istədiyimiz şəkildə gedir. Novruzda əfv olacaq. Hansı günü əfv veriləcəyini deyə bilmərəm, amma mütləq əfv olacaq".

**Digər hüquq müdafiəçisi Səidə Qocamanlı da əfv sərəncamının imzalanacağının labüd olduğunu söylədi:** "Ola bilər ki, bayramdan öncə, yaxud elə bayram axşamı əfv verilsin. Bunu təcrübələr göstərir. Hər halda, bayramdan sonra əfv olmayacaq. Bu birmənalıdır. Novruza qalan müddət istənilən gün əfv verilə bilər. Əfv Komissiyası çox güman ki, qalan 10 gündə siyahılarını bitirib, ölkə başçısına təqdim edəcək".

**Hüquq müdafiəçisi qalan 10 gün müddətində xaricdən gələ biləcək təzyiq ehtimallarının yüksək olduğu qənaətindədir:** "Çox rahatam ki, bu bayramda müsbət addımlar atılacaq. 22 nəfərlik siyahımızı Əfv Komissiyasına təqdim etmişik. Bu dəfə də Qərbdən təzyiqlər bayram ərəfəsində gələ bilər. Dəfələrlə bu hallar olub. Əfv fərmanına bir addım qalmış, məhz Qərbdən gələn təzyiqlər ucbatından sərəncamın imzalanmasına stop qoyulub. Amma belə şeylərə fikir vermək lazım deyil. Humanizmi əldə tutub, əfvi vermək lazımdır. Xarici təşkilatlara göstərmək lazımdır ki, Azərbaycan öz problemlərini həll etməyə qadir ölkədir. Bu onlar üçün yox, cəmiyyətimiz üçün çox vacibdir. Çünki siyasi məhbuslar sırasında xəstə olanlar, əfv yazanlar, cəzalarının çox hissəsini çəkənlər var. Bunları nəzərə almaq lazımdır".

Qeyd edək ki, üzümüzə gələn əfvdə prezidentə müraciət edən siyasi məhbusların azad edilmə şansları daha çox dəyərləndirilir. Bu qəbildən Rəşadət Axundov, Rəşad Həsənov, İlkin Rüstəmzadə, Məmməd Əzizov, Ömər Məmmədov, Əbdül Əbilov, Pərviz Həşimli, Hilal Məmmədov kimi məhbusları qeyd etmək olar.

❑ **Cavanşir ABBASLI**



## QHT Şurası seçkilərə start verdi



**Martın 9-da Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası üzvlüyünə "İnsan hüquqları və demokratiya" qrupu üzrə seçki keçirildi.**

İclası açıq elan edən şura katibliyinin icraçı direktoru Fərasət Qurbanov prezidentin 2007-ci il 13 dekabr tarixli 674 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası haqqında Əsasnamə"nin 3.6-cı bəndinə və 4.8.7-1. yarımbəndinə uyğun olaraq, şura üzvlüyünə qeydə alınmış namizədlərin seçilməsi üçün ixtisaslaşmış 8 QHT qrupunda seçkilərin keçiriləcəyini deyib. F.Gurbanov seçkilərin azad, şəffaf və demokratik şəkildə keçirilməsi üçün lazımi şəraitin yaradıldığını bildirib.

İclasa açıq səsvermə ilə Sahib Fərzəliyev sədr, Zemfira Mustafayeva isə katib seçilib. Sonra say komissiyasının 3 nəfərdən ibarət tərkibi müəyyən edilib. Sahib Fərzəliyev bildirib ki, iclasda qeydə alınmış 71 QHT nümayəndəsindən 65-i iştirak edir. Hər bir nümayəndə maksimum 3 namizədə səs verə bilər.

Şura üzvlüyünə namizədlər "Azərbaycan-Slavyan Gəncləri Assosiasiyası" İctimai Birliyinin sədri Səbuhi Abbasov, "Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası" İcraiyyə Komitəsinin sədri Sahib Məmmədov, "Ahıl Ziyalılara Qayğı" İctimai Birliyinin sədri Nurullayev Nəsrulla və "Neftçilərə Hüquqi Yardım Mərkəzi" İctimai Birliyinin sədri Nəbi Rəhimov iclasda çıxış ediblər.

Səsvermədən sonra nəticələr açıqlanıb. Ən çox səs toplayan ilk 3 nəfər Sahib Məmmədov (60 səs), Nəbi Rəhimov (21 səs) və Nəsrulla Nurullayev (20 səs) olub.

Seçki prosesini Niderlandın Azərbaycandakı səfiri, Avropa İttifaqı və Rumuniyanın ölkəmizdəki səfirliklərinin nümayəndələri və media təmsilçiləri izləyirdi.

Martın 17-nə qədər digər ixtisaslaşmış QHT qrupları üzrə də seçkilər keçiriləcək.

❑ **İlkin MURADOV**

## Zakir Nəsirovun həyat yoldaşı prezidentə əfv üçün müraciət etdi

**Ömürlük həbsə məhkum olunmuş, hazırda Qobustan Qapalı Həbsxanasında saxlanılan general-mayor Zakir Nəsirovun həyat yoldaşı prezident İlham Əliyevə müraciət edib. Z Nəsirovun ailəsi prezidentdən onun əfv olunmasını xahiş edir. Redaksiyamıza daxil olan müraciətdə deyilir:**

«Möhtərəm cənab prezident!

Bizim ailəmiz 11-ci ildir ki, səbirsizliklə Zakir Nəsirov barəsində çıxarılmış qanunsuz məhkəmə qərarlarının ləğv olunacağını, onun bəraət alacağını gözləyir və inanırıq ki, ümummilli liderimiz Heydər Əliyev cənablarının təbiri ilə desək, ədalət zəfər çalacaq. Zakir Nəsirov da, onun ailəsi də həmişə Azərbaycan dövlətinə, dövlətçiliyə, möhtərəm prezidentimizə sadiq olmuşuq, Sizə olan inamımızı bir gün də olsun itirməmişik və itirmirik. Dövlətimizin rifahı üçün Sizin gördüyünüz işləri daim dəstəkləmişik, uğurlarınıza sevinmişik. İnanırıq ki, bizim səsimizi eşidəcəksiniz, Zakir Nəsirovun işinə yenidən ədalətlə baxılması üçün göstəriş verəcəksiniz. Amma bilirik ki, işə yenidən baxılması bir qədər mürəkkəb və uzun çəkən prosesdir. Zakir Nəsirov artıq 11-ci ildir ki, etmədiyi cinayətlərə görə həbsdədir. Onun yaşı 70-ə yaxınlaşır, səhhətində problemlər var. Sizə onun üçün müraciət edirik ki, bildiyimizə görə, Novruz bayramı ərəfəsində Sizin tərəfinizdən növbəti əfv fərmanı veriləcəyi gözlənilir. Ümidvarıq ki, Sizin humanistliyiniz sayəsində Zakir Nəsirov da əfv ediləcək, azadlığa, ailəsinə qovuşacaq".

Qeyd edək ki, Z.Nəsirov 2005-ci ildə Eldar Mahmudovun göstərişi ilə həbs olunub. Həbsindən əvvəl Z.Nəsirov bir neçə dəfə o dövrdə Milli Təhlükəsizlik Nazirliyinə dəvət olunub. Ondan DİN rəhbərliyi əleyhinə ifadə istənilib. Z.Nəsirov qanunsuz tələblə razılaşmadıqda isə həbs olunub və sonradan ömürlük həbsə məhkum edilib.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 55 (6376) 10 mart 2016



# Vığıltıdan gələsi 3-4 milyon dollar

Samir SARI

**Oxumuş adamlar haqqına deyirlər ki, zövqlər barədə mübahisə etməzlər, çünki hərənin bir zövqü var. Eyni söhbət idman oyunlarına maraqda da keçərlidir. Düzdür, futbol xüsusunda dünya əhlinin, xüsusilə də onun kişi kəsiminin böyük hissəsinin zövqü üst-üstə düşür, amma onu da mənasız oyun hesab edənlər var.**

Açığı, özüm də futbol azarkeşi, hətta yekə çıxmasın, müəyyən qədər futbol analitiki olsam da, etiraf edirəm: mənasız işdir. Oyundur, oyundan başqa da bir şey deyil. Arada ortasına siyasət, bayraq, vətən söhbəti qarışmasa, nə baxılası tamaşadır, nə də ürəyə salınası bir şey. Son vaxtlar isə futbolun lap zayı çıxıb, "iyirmi bir", poker, coker, bric və sair stolüstü qumar oyunları kimi bir şey olub.

Xüləs, prinsipcə, başqa idman oyunları daha mənasız, həm də maraqsızdır. Ot üstündə hokkeydən tutmuş qılınc oynatmaya qədər. Bunlar, sadəcə, əyləncədir və bunu belə də qəbul etmək lazımdır.

Bir ölkənin idmanla nəfəs alması, eyzən hansısa oyunlarla, birinciliklərlə, çempionatlarla, türkün sözü, uğraşması ayıb şeydir. İdmandan söz düşəndə tez-tez "Sağlam bədəndə sağlam ruh olar" deyirlər ha, bu söz qarnıtox və dərdsiz bədənlərə aiddir, ac və sinirləri gərgin bədənin nə idmanlıq halı olar, nə də oyunluq, tamaşalıq ovqatı.

Budur, bir şey qalmayıb, yayda ölkəmizdə maşınötüşdürmə yarışı keçiriləcək. Get-gedə "Formula 1" söhbəti medianının gündəmini başına götürür, bu gün-sabah siyasi gündəmə də oturacaq, nazirlər, komitə sədrləri, İH başçıları döşənib elə hey "Formula 1"-dən danışacaqlar, hüquq-mühafizə orqanları gücləndirilmiş iş rejiminə keçəcəklər. Hər şey unudulacaq - Qarabağ münaqişəsi, devalvasiya, regiondakı gərginlik, korrupsiyaya qarşı mübarizə, hətta manıslararası çəkişmə-dartışmalar və s.

İndilikdə bu mövzuda təkcə idman və gənclər naziri Azad Rəhimov danışır. Cənab nazir deyib ki, "Formula 1" qran-prisinin bilet satışından 3-4 milyon manat arası gəlir əldə ediləcəyik.

Belə məlum olur ki, 30 min bilet satışa çıxarılıb, satış həm internet, həm də kassa satışı ilə həyata keçirilir və işlər tam qaydasında gedir.

Sevindirici xəbərdir. Yoxsa, bir sıra ağzıgöyçəklər neçə vaxtdır ölkəmizin idman yarışlarına görə ziyana düşdüyü barədə təbliğat aparır, ictimai rəyi çaşdırır, bulanıq suda balıq tutmaq istəyir, hətta o bulanıq suyu aparıb erməni dəyirmanına tökməyə çalışırlar.

Hardan baxsan, 3-4 milyon dollar az pul deyil. Amma gərək yarışmanın açılışına Ledi Qaqanı gətirməyək, öz müğənni ledilərimizlə, manıs qaqalarımızla yola verək, getsin. Çünki Ledi Qaqa da Beyons və Cenifer Lopes kimi bahacıldırlar, şənliklərə baha gedirlər. Onları çağırsaq, "Formula 1"-dən qazanacağımız pulun hamısını istəyəcəklər.

Hərçənd cənab nazirin sözünə skeptikcəsinə yanaşanlar da var, deyirlər ki, yarışmaya yaxşı yerdən baxmağın qiyməti 600 dollardır, bu qədər pulu kim verəcək, kimdir gedib axşamacan şütüyən maşınlara baxan, superkar vığıltısına qulaq verən.

Söz yox, onun da öz həvəskarları var, amma camaatın çoxu heç küçədə gedən bircə "Porşe"nin vığıltısına, ğorultusuna (bir baxın, ğ ilə başlayan söz icad olundu) dözmür. Məsələn, mən özüm, budur, altı aydır axşam saat 20.30-da "İçərişəhər" metrostansiyasının qabağından ğoruldayaraq 130 km/saat sürətlə MUM tərəfə uçan naməlum "Porşe"nin səsindən diksinirəm və nə qədər o maşının nömrəsini yazmağa çalışsam da, mümkün olmur. Maşın bir görünür, vığıltısıyla hamını qorxudur və bir anda yox olur.

Bir də var, birdən-birə 10-15 maşın o cür səs çıxarda və sən oturub ona tamaşa edəsən.

Onu da qeyd edim ki, bizim avtomobil və sürət həvəskarlarının çoxu o maşınlara tribunadan baxmaq istəməzlər, onların içində olmaq istəyərlər. Məsələn, yuxarıda dediyim naməlum "Porşe"nin pilotu yarışçılardan daha yaxşı manevrlər edə, maşını daha yaxşı çığırda bilər.

**P.S.** *Bir nəfər də var, deyir ki, maşınötüşdürmə yarışından gələcək 3-4 milyon dollar az pul deyil, amma yarışın təşkilinə 30-40 milyon xərclənibsə, azdır.*

**KXCP, AXP, ADP, VİP, AzDP, ALDP, BAP, Azadlıq Partiyası, GAP, AG blok və digər müxalifyönlü təşkilatların, QHT-lərin təmsil olunduğu müxalifətin antiböhran koalisiyası böhranla bağlı mövzuda YAP, siyasi müxalifət problemləri mövzusunda isə Milli Şura və Müsavat Partiyası ilə xalq və KİV qarşısında açıq debat keçirilməsi qərarına gəlib.**

# Antiböhran koalisiyasının təmsilçisi ilə Müsavat başqanı arasında görüş

Müsavat və Milli Şura ilə debatın reallaşdırılması üçün danışıqlar aparmaq isə ADP sədri Sərdar Cəlaloğluna həvalə edilib. Martın 9-da S.Cəlaloğlu bu məqsədlə Müsavat başqanı Arif Hacılı ilə görüşüb. Görüş Müsavat qərargahında baş tutub.

Görüşün nəticələri, hansı məsələnin müzakirə edildiyi barədə məlumat almaq üçün A.Hacılı ilə danışdıq. Müsavat başqanı məlumat verdi ki, antiböhran koalisiyası debatlarla bağlı təklif verib və Sərdar Cəlaloğlu ilə görüşdə bu təkliflərin mahiyyəti aydınlaşdırılıb, təkliflər ətrafında müzakirələr aparılıb.

**Təkliflərin nədən ibarət olduğuna gəlincə, A.Hacılı bildirdi ki, Müsavatla debat təklifi irəli sürülüb:** "Partiya rəhbərliyində müzakirə olunduqdan sonra bu barədə cavabımızı Sərdar bəyə çatdıracağıq".

**"Təcrübə göstərir ki, debatlar adətən hakimiyyətlə müxalifət arasında, seçkilərdə bir-birinə rəqib olan şəxslər arasında keçirilir. Antiböhran koalisiyasının Müsavatla debat təklifində söhbət əslində nədən gedir? Bəlkə məqsəd Müsavatı da koalisiyaya cəlb etməkdir" sualına A.Hacılı belə cavab verdi:** "Mən bu məsələni bu saat mətbuat vasitəsilə müzakirə etmək istəməzdim. Sərdar bəylə görüşümüzdə bu məsələlər ətrafında müzakirələr apardıq və təklifin mahiyyəti mənə artıq tamamilə aydındır. Mən bu təkliflə Müsavat Partiyası rəhbərliyini tanış edəcəyəm".



**Arif Hacılı:** "Sərdar bəylə görüşümüzdə debat təklifi ilə bağlı müzakirələr apardıq və təklifin mahiyyəti mənə artıq tamamilə aydındır"



**Sərdar Cəlaloğlu:** "Biz bunu arzu edərik, amma bu məsələ bizdən yox, Müsavatın qərarından asılıdır"

**S.Cəlaloğlu isə bildirdi ki, A.Hacılı onu çox yüksək səviyyədə qarşılayıb və səmimi söhbətləri olub:** "İlk növbədə biz türmə yoldaşıyıq, dostuq. Sonra isə partiya rəhbərləri kimi həmkarıq. Məni yüksək səviyyədə qarşıladı. Müzakirə apardıq. Arif Hacılı bizim təklifimizi Müsavat Divanına çatdıracaq. Onlar məsələni müzakirə edəcəklər və nə qərara gəlsələr, bizə məlumat verəcəklər. O zaman dəqiq bəlli olacaq debat təklifinin qəbul edilib-edilmədiyi".

**S.Cəlaloğlu debat təklifinin mahiyyəti barədə bunları dedi:** "Koalisiyada ümumi qərara gəlindi ki, təxminən 300 nəfərin qarşısında bir nəfər Müsavatdan, bir nəfər isə koalisiyadan olan təmsilçinin iştirakı ilə ölkədəki ictimai-siyasi vəziyyət, böhranlı durum, müxalifətarası münasibətlər müzakirə olunsun. Zala yığışacaq 300 adam, iki nəfər isə onların qarşısında oturacaq, suallar ünvanlanacaq, suallara cavablar veriləcək, tərəflər bir-birinin mövqeyinə münasibət bildirəcək, imkan olsa "Kanal 13" internet televiziyası canlı yayımlayacaq".

**"Müsavatın antiböhran koalisiyasında iştirakı gözlənilirmi" sualına ADP sədri belə cavab verdi:** "Biz bunu arzu edərik. Amma bu məsələ bizdən yox, Müsavatın qərarından asılıdır. Mən Müsavat qərargahına Müsavatın koalisiyaya üzv olması təklifi ilə getməmişdim. Ona görə də bu məsələ ilə bağlı müzakirəmiz olmayıb. Müsavat Partiyası antiböhran koalisiyasına üzv gəlsə, çox şad olarıq. Gəlməsə, biz nə edə bilərik ki?"

**S.Cəlaloğlu görüş üçün Milli Şuranın üzvü olan AXCP-yə də rəsmi müraciət göndərdiyini, lakin heç bir cavab verilmədiyini bildirdi:** "Bizim rəsmi təklifimiz göndərilməzdən öncə, debat təklifi barədə qərar qəbul olunandan bir neçə saat sonra bizim bu təşəbbüsə qarşı AXCP rəsmisi ağzına gələni deyib. Buna baxmayaraq, biz rəsmi olaraq müraciətimizi göndərmişik. YAP-a da rəsmi müraciət göndərmişik. Hələ rəsmi cavab verilməyib".

❑ Etibar SEYİDAĞA

# Xələddin İsgəndərovun təpələri sökülür

## "Azəryolservis" sözçüsü bunun nəqliyyatın hərəkətini asanlaşdırmaq üçün edildiyini deyir

**Binəqədi rayonu ərazisində - Bakı-Sumqayıt yolunun kənarındakı təpələr sökülür. Bir neçə il öncə dövlət büdcəsindən milyonlarla vəsait hesabına yol kənarlarında salınmış təpəciklər 2015-ci ildən etibarən sökülməyə başlamışdı. Səbəb kimi metronun "Avtovağzal" stansiyasına yerüstü tunelin çəkilməsi göstərilirdi. O zaman bu təpələrin təqribən 200 metrə yaxın hissəsinin sökülmə əmri verildi. Külli miqdarda vəsait xərclənən bu süni təpələr qısa zamanda icra hakimiyyəti tərəfindən söküldü.**

İndi Binəqədi rayonunun icra başçısı Xələddin İsgəndərovun saldığı yolkənarı təmtəraqlı təpələr bütünlüklə sökülür.

Musavat.com-un əməkdaşı adıçəkilən ərazidə olub və söküntü prosesi ilə maraqlanıb.

Söküntü Avtovağzal kompleksinin yaxınlığında aparılır. Ərazidə "Azəryolservis" ASC-nin əməkdaşları fəaliyyət göstərirlər.









**Ərazidə çalışanlar söküntü işinin "Azəryolservis" ASC tərəfindən aparıldığını bildirdilər:** "Bir neçə gündür ki, söküntü prosesi gedir. Yalnız Avtovağzal kompleksinə yaxın olan ərazidəki təpəciklər sökülür. Söküntüyə "Azəryoservis"in baxdığını bilirik. Deyilənə görə, təpənin sökülməsinə səbəb magistral yolla bağlıdır, yol genişləndiriləcək".

**Məsələ ilə bağlı "Azəryolservis"ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli ilə də əlaqə saxladıq. O, yolkənarı təpələrin sökülməsinin səbəbini belə izah etdi:** "Hazırda söküələn təpə nəqliyyatın hərəkətinə maneə törədirdi. Avtomobillər həmin təpəyə yaxınlaşdıqda yüngül manevr edərək qarşı yola çıxırdılar. Bu zaman "Şamaxinka" adlanan ərazidə sıxlıq yaranırdı. Bu səbəbdən də təpənin müəyyən hissəsi, 15 metr eni, 5 metr uzunluğu olmaqla sökülür. Bu məsələnin sürüşmə zonasına aidiyyəti yoxdur".

Qeyd edək ki, mətbuatda həmin təpələrin Bakı-Sumqayıt yolundakı sürüşmənin əsas səbəbi olduğu qeyd edilir. Belə ki, həm təpələrin yola saldığı ağırlıq, həm də oradakı yaşıllığın gündəlik olaraq suvarılmasının yolun sıradan çıxmasına səbəb olduğu qeyd edilirdi.

❑ Məğrur MƏRD
Fotolar müəllifindir

YENİ MÜSAVAT
N 55 (6376) 10 mart 2016

# Maliyyə nazirimiz haqda şok iddia

**"Rusiyanın xarici işlər naziri Sergey Lavrovun ABŞ və Avropada qanunsuz biznesi var". Bu sözləri Ukraynanın "Qordon" nəşrinə müsahibəsində eks-sovet kəşfiyyatçısı, hazırda Amerikada maliyyə analitiki qismində çalışan Yuri Şvets söyləyib. Rusiya prezidenti Vladimir Putinin tələbə yoldaşı olan Şvets bu və digər ilginc faktları sovet və Rusiya agenturası haqda yazmağa hazırlaşdığı ikinci kitaba daxil eləməyi planlaşdırır.**




# Putinin tələbə yoldaşı Samir Şərifovu "3 qat agent" elan etdi

## Sabiq sovet kəşfiyyatçısı Yuri Şvetsə görə, Şərifov eyni vaxtda Rusiya, ABŞ və Türkiyə xüsusi xidmətlərinə işləyir; onun "verbovka" olunmasında nazir müavini Xələf Xələfovun da adı çəkilir; **Azərbaycan XİN:** "Bu cür məsələləri şərh etmirik..."

Y.Şvets "soyuq müharibə" zamanı TASS-ın gizli əməkdaşı kimi fəaliyyət göstərib, ABŞ-ın SSRİ-yə qəfil nüvə zərbəsi endirəcəyi haqda informasiyaları toplayaraq analiz edib. Onun 1994-cü ildə, Amerika emiqrasiyadan dərhal sonra yazdığı ilk kitab - "Vaşinqton rezidentliyi: mənim Amerikadakı KQB casusu kimi həyatım" adlı kitabı bestsellerə çevrilərək, müəllifə böyük populyarlıq qazandırıb.

**Müsahibənin birinci hissəsində Rusiyanın Qərbdəki konsulluğu nəzdində kommersiya şirkətləri haqda danışılır - hansı şirkətləri ki, açıq şəkildə "Sergey Lavrovun pensiya fondları" adlandırırlar. Bu hissədə həmçinin Azərbaycanın maliyyə naziri Samir Şərifovla bağlı sensasison iddialar yer alıb. Mövzunun ictimai əhəmiyyətini nəzərə alaraq, həmin hissəni bəzi ixtisarlarla təqdim edirik:**

"Agentura mənbələrinin iddiasına görə, Samir Şərifov Rusiya, Türkiyə və ABŞ xüsusi xidmət orqanlarına işləyib, indi isə təzədən Kreml tərəfindən "verbovka" edilib.

***- Gələcək kitabınızdan olan qeydlərə görə, Siz nazir Samir Şərifovu "üçqat agent"lər sırasına aid eləmisiniz.***

- Onu ora mən aid etməmişəm. Bu informasiya Rusiya xüsusi xidmətlərindəki mənbələrdəndir. İndi bəlkə bir çoxlarına inandırıcı görünməz, ancaq hələ 2003-cü illərdə "FSB" (Rusiyanın Federal Təhlükəsizlik Xidməti - FTX-red.) 30 min dollara bütöv bir agentura işini ələ keçirə bilirdi. Və mənə belə sövdələşmələrin baş tutduğu konkret hallar məlumdur. Bu əməliyyatlarda tez-tez sovet və Amerika xüsusi xidmət orqanlarının arsenalındakı üsul və vasitələrdən istifadə eləmək lazım gəlirdi.

***- Sizin mənbəniz yüksək çinli bu məmur haqda nə öyrənə bilmişdi?***

- "FSB"dəki qaynaq bir neçə il öncə agentura məlumatı hazırlamışdı. Onu ingiliscədən tərcümədə bütünlüklə sizə təqdim edirəm:

"Rusiya kəşfiyyat ictimaiyyətindəki mənbələr iddia edir ki, onların idarəsi Türkiyə və ABŞ-ın kəşfiyyat xidmətlərinə nüfuz edib, nəticədə mövcud agentura haqda mühüm məlumatlar əldə edilib. Mənbələr bunun nə vaxt baş verdiyini dəqiqləşdirməyib. Ancaq onu qeyd ediblər ki, bu, Edvard Snoudenlə *(Amerikanın hazırda Rusiyaya sığınmış keçmiş məxfi xidmət əməkdaşı - red.)* bağlı deyil və 2010-cu ilədək baş verib.

Mənbələrin informasiyasına görə, müdaxilə nəticəsində alınmış məlumatlar Rusiya Xarici Kəşfiyyat Xidmətinə (XKX) belə bir nəticəyə gəlməyə imkan verib ki, onun çoxdankı agenti, Azərbaycanın maliyyə naziri Samir Şərifov əslində Rusiya, Türkiyə və ABŞ xüsusi xidmətlərinə işləyən, bəzən eyni vaxtda işləyən üçqat agent olub.

XKX-dakı qaynaqlara görə, rusiyalılar əmindir ki, Şərifov 1989-90-cı illərdə Cənubi Yəməndə işləyərkən Türkiyə kəşfiyyatı tərəfindən "verbovka" olunub. Daha sonra o, MKİ (ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsi-red.) ilə əlaqəyə keçirilib. O vaxtdan da Amerika və Türkiyə xüsusi xidmətlərinə təsir agenti və mühüm informasiya mənbəyi qismində işləyib.

"FSB"dəki qaynağa görə, Samir Şərifov öz karyerasına Sovet Azərbaycanının lideri Heydər Əliyevin yaxın ətrafına daxil olmağa atasının köməyi ilə başlayıb. Bu əlaqələr hesabına o, Azərbaycan hökuməti tərəfindən Kiyev Dövlət Universitetinə - Beynəlxalq Əlaqələr fakültəsinə göndərilib. İlkin olaraq onu MQİMO-ya *(Moskva Beynəlxalq Əlaqələr İnstitutu -red.)* göndərmək planlaşdırılıb, ancaq onun sənədləri dövlət təhlükəsizlik orqanlarında razılaşmadan keçməyib.

Kiyev Universitetində oxuyarkən Şərifov "KQB" ilə sıx əməkdaşlıq edib. Sovet İttifaqı dağılmaq ərəfəsində agenturaya aid əksər qovluqlar Ukraynadan Moskvaya aparılıb. Onların arasında Şərifovun agentura işi də var idi. Şərifovun işi ilə tanış olan "KQB" zabitləri sırasında olan mənbə deyib ki, o, kompromat əsasında "verbovka" edilib. Onu qara bazarda xarici valyuta ilə qanunsuz alver əməliyyatları edərkən yaxalayıblar. Bu qəbildən geniş miqyaslı əməliyyatlar o vaxt SSRİ-də 10 ilik həbs və hətta ölüm cəzasına gətirə bilərdi. Lakin Şərifovun qara bazarda sövdələşməsinin həcmi böyük olmadığından, "KQB" ona göz yumdu və Kiyevdəki təhsili zamanı o, heç bir qalmaqal yaşamadı.

Kiyev Universitetini bitirdikdən sonra Şərifov Bakıya qayıdıb və Azərbaycanın Xarici Ticarət Nazirliyində xarici iqtisadi əlaqələr şöbəsində işləməyə başlayıb. 1988-ci ildə o, Heydər Əliyevin proteksiyası ilə Cənubi Yəməndə işləməyə göndərilib. İlkin olaraq tərcüməçi kimi çalışıb, daha sonra isə sovet hərbi texnikasının Cənubi Yəmənə çatdırılması ilə məşğul olan qrupa düşüb. Bu vəzifədə o, "KQB"nin 1-ci Baş İdarəsinin (xarici kəşfiyyat) nəzarəti altında agent kimi işləyib - hansı idarə ki, konfidensial şəkildə ona həm də rəhbərlik edib. Ciddi xoşagəlməzlik baş verənədək "KQB" onunla əməkdaşlıqdan razılıq edib. Belə ki, XKX-dəki mənbənin məlumatına görə, 1990-cı ildə sovet silahları olan iki iri nəqliyyat vasitəsi Cənubi Yəmənə doğru hərəkət etdiyi halda, yolda yoxa çıxıb.

"KQB" bununla bağlı hərtərəfli təhqiqat apararaq müəyyən edib ki, "düşmən xarici kəşfiyyatı Cənubi Yəməndə xidmət edən sovet xidmətçiləri arasından verbovka elədiyi agent vasitəsilə yükdən xəbər tutub". O zaman Şərifov əsas şübhəlilərdən olub, nədən ki, "KQB"nin bu ölkədəki rezidentliyi onun Türkiyə xüsusi xidmət orqanlarını təmsilçiləri ilə gizli təmaslarına dair icazəsiz sübutlar əldə eləmişdi. O vaxt Şərifov təhqiqatın davamı və sorğu-sual edilmək üçün təcili şəkildə Moskvaya çağırılıb. Ancaq tezliklə SSRİ-nin dağılması Şərifovu xilas edib.

Bizim XKX-dəki qaynağımız qeyd edib ki, KQB Şərifovun Türkiyə kəşfiyyatına cəlb olunması və ikiqat agentə çevrilməsinə dair birbaşa dəlillərə malik olub. Mənbənin sözlərinə görə, Türkiyə xüsusi xidmətinin nəzarəti altında olan agent geniş informasiya imkanlarına malik olmaqla yanaşı, hətta Azərbaycan hökumətinin tərkibinə təsir etmək imkanlarına malik olub. O sırada mənbə qeyd edib ki, 2005-ci ildə (yazıda nədənsə 2006-cı il göstərilib - red.) Bakıda hökumətin bir sıra yüksək çinli məmurlarının həbsi ilə nəticələnən dövlət çevrilişi cəhdinin "açılmasında" Şərifovdan istifadə olunub. Təqribən eyni vaxtda Şərifov "məsləhətçi xidmətləri göstərdiyinə görə" Türkiyənin "Torcas" şirkəti tərəfindən alları oğurlayıblar. Şərifovla bağlı iş yenidən əngəllənib. Lakin XKX-dəki mənbənin sözlərinə görə, XKX bir qədər sonra təzədən ABŞ-ın kəşfiyyat cameəsinə nüfuz edə bilib və belə bir nəticə əldə edib ki, Şərifov üçqat agentə çevrilib. Həmin məlumata əsasən, Şərifov MKİ tərəfindən Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfovun köməyi ilə verbovka olunub - hansı ki, özü də ABŞ xüsusi xidmətləri ilə sıx əlaqələrə malik imiş".

**Keçmiş "KQB" zabiti daha sonra bildirir ki, böyük məyusluğa rəğmən, Rusiya Şərifovla işləməyə davam qərarı verib, çünki "yaxşı məlumatlara malik və nüfuzlu məmur kimi" onunla təmasları kəsmək məqbul sayılmayıb:** "Bundan başqa, ümid edilib ki, aylıq ödəmələr almağa başlayıb.

Rusiya xüsusi xidmətləri ondan çıxış edirdi ki, Türkiyə NATO üzvü kimi ABŞ MKİ-sı ilə özünün kəşfiyyat və agentura məlumatlarını bölüşəcək. Hadisələrin sonrakı inkişafı Rusiya xüsusi xidmətini inandırdı ki, Şərifovla işləməyə ABŞ-ın kəşfiyyat cameəsi də qoşulub. Belə ki, 1992-ci ildə Azərbaycan MTN-i konfidensial şəkildə FSB-yə (FTX) çatdırmışdı ki, amerikalılar Azərbaycanın Beynəlxalq Valyuta Fonduna (BVF) üzv olmasına dair danışıqlarda Şərifovun iştirakında təkid edirlər. Bu, SSRİ-nin çöküşündən sonrakı qarışıq bir dövr idi, o üzdən Azərbaycan hökumətində heç kim bunun səbəbi ilə maraqlanmadı. Bununla belə, MTN bunda şübhəli bir məqam görmüşdü, çünki Şərifov heç vaxt amerikanlarla işləməmişdi və ABŞ-da o, heç bir təmasa malik olmamalı idi. Amerikanın qəfildən Şərifova maraq göstərməsi Bakı və Moskvada böyük şübhə yaratmışdı.

Azərbaycan MTN-i Şərifovun ABŞ hökumətinin şübhəli əlaqələrinin araşdırılmasına başlayıb və tezliklə ağla gəlməyən olaylar sırasına aid fakt üzə çıxıb: naməlum şəxslər gecə BVF-nin Bakı nümayəndəliyinə girərək, 1992-ci ildəki danışıqlara dair bütün materi-

Şərifovun Rusiya ilə əməkdaşlıqda maliyyə maraqları ABŞ-dan dəstək almaq maraqlarını üstələyəcək. Ayrı sözlə, onu təzədən ələ almaq kimi bir elementar vəzifə qarşıda dururdu. XKX-da həmçinin hesab edirdilər ki, Şərifovun öz ölkəsinə vurduğu ciddi ziyana dair yetərli dəlillər olduğundan, onu şantaj yolu ilə yenidən əməkdaşlığa cəlb eləmək mümkündür... Mən qəti təəccüblənmərəm əgər desəm ki, ABŞ və Türkiyədə heç kim artıq şübhə eləmir ki, Samir Şərifov üçqat agentdir və indi də Rusiyaya işləyir..."

***

**Sonda redaksiya qeyd edir ki, Samir Şərifov uzun müddətdir Azərbaycan hökumətində qərbpərəst, amerikapərəst mövqeli nazir kimi tanınır. Onun adı hazırkı və yaşlı baş nazir Artur Rəsi-zadənin uğurlu xələfi kimi də zaman-zaman mediada da hallanıb...**

**Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfovla bağlı yer alan ilginc iddialara gəlincə, məsələyə XİN-in mövqeyini almağa çalışdıq. Mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev "Yeni Müsavat"a materialdan xəbərdar olduğunu dedi və qısaca bunu söylədi: "Bu cür məsələləri şərh etmirik".**

❑ **Hazırladı: Siyasət şöbəsi**

YENİ MÜSAVAT

N 55 (6376) 10 mart 2016

# Məscid yandıran PKK yanlısının həbsdən yayındırılması böyük etiraz doğurdu

**İxtiyar Şirin:** "Terrora qarşı mübarizədə belə istisnaların edilməsi ölkəmizə yaxşı heç nə vəd etmir"



Namiq Nəsibov

**Bakıda PKK-nın yerli özəyini - "Yekbun" təşkilatını yaradan Namiq Nəsibovun məhkəmə zalından azad edilməsi böyük etiraz və narazılıq doğurub.**

N.Nəsibovun azad edilməsi ilə sonuclanan məhkəmə araşdırması Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Rauf Əliyevin sədrliyi 2015-ci ildə başlamışdı. Onu və Elnur Ələkbərovu 2014-cü ilin noyabrında Suraxanı Rayon Polis İdarəsinin əməkdaşları saxlamışdılar. İş üzrə ibtidai istintaqı ləğv olunmuş MTN aparmışdı. İttihama görə bu şəxslər 2014-cü il noyabrın 26-da gecəyarısı Suraxanı rayonu, Qaraçuxur qəsəbəsi, Ə.Mehbalıyev küçəsində yerləşən "Cümə" məscidinə yandırıcı maye ilə doldurulmuş şüşə butulkalar atmaqla orada yanğın törədiblər.

MTN-in yaydığı rəsmi məlumatda deyilirdi ki, Namiq Nəsibov 2014-cü ilin avqust-sentyabr aylarında "PKK" terrorçu təşkilatının nəzarətində olan Suriyaya gedərək oradakı döyüşlərdə iştirak edib. Suriyanın Kobani şəhərindən qayıtdıqdan sonra Elnur Ələkbərov ilə birgə "PKK" terrorçu təşkilatının respublikamızda qanadı olaraq qeyri-rəsmi "Yekbun" təşkilatını yaradıb və ətraflarına tərəfdarlar toplamaq işinə başlayıblar...

Həbslərindən sonra hər iki şəxsə Cinayət Məcəlləsinin 214.2.1-ci (terrorçuluq), 228.2.1-ci (qanunsuz olaraq odlu silah gəzdirmə) maddələri ilə ittiham elan olunub.

Bunca ciddi ittihamlarla üz-üzə qalan N.Nəsibovun məhkəmə zalından azad edilməsi çox ciddi mətləblərdən xəbər verir. E.Ələkbərov 15 il azadlıqdan məhrum edilsə də, eyni ittihamla üz-üzə qalan Namiq Nəsibov məcburi müalicəyə göndərilib. Bir müddət sonra onu azadlıqda görsək, təəccüblənmək lazım deyil. Vaxtilə "Ronahi" kürd mədəniyyət mərkəzində sədr müavini olan N.Nəsibov Öcalan aşiqi, PKK yanlısı olduğunu da gizlətmirdi. Sosial şəbəkələrdə üzərində Öcalanın fotosu həkk edilmiş köynəkdə fotolarını tirajlayan N.Nəsibova cəmiyyətdə münasibət neqativ idi...

Bu hökm haqda məlumat alanlar "nə oldu, PKK-nın yerli qanadını yaradan, məscid yandıran dəli oldu" sualını verib hiddətləndiklərini gizlətmirlər.

**Məsələyə sabiq baş prokuror İxtiyar Şirin də münasibət bildirib:** "Müstəntiq işlədiyim dövrdə çox ağır cinayətlər törətmiş iki şəxsin məsuliyyətdən azad edilməsi üçün yüksək səviyyədə qərarlar qəbul edildiyinin şahidi olmuşam. Onlardan biri 1979-cu ildə etnik mənşəyi erməni olan Sərkisyan soyadlı şəxsin azyaşlılardan təşkil etdiyi cinayətkar qrupun törətdiyi onlarla quldurluq hadisəsi ilə bağlı idi. Cinayətin təşkilatçısı Sərkisyanın həbsdən və məsuliyyətdən azad edilməsi üçün əvvəlcə rayon prokuroru vasitəsilə mənə təsir göstərmək istədilər. Onu buraxmaqdan imtina etdikdə məni respublika prokurorunun müavini yanına dəvət edib, Sərkisyanın məsuliyyətdən və həbsdən azad edilməsi barədə göstəriş verdi. Mən ona da bunu etməyəcəyimi bildirdim.

Ancaq işi məhkəməyə göndərdikdən sonra bu işin izini itirdim və Sərkisyanın işinin nəticələri barədə heç bir məlumat ala bilmədim. Eşitdiyimə görə, bu işin taleyini Moskvadakı erməni lobbisi həll etmişdi. İkinci iş etnik mənşəyi yəhudi olan Mişiyev soyadlı şəxsin 1980-1981-ci illərdə onlarla azyaşlı qıza təcavüz etməsi ilə bağlı idi. Bu cinayətlər törədilən dövrdə bütün Bakı şəhəri vahimə içərisində idi və Mişiyev çox çətinliklə növbəti cinayət başında yaxalanmışdı. Bu iş də baxılmaq üçün Ali Məhkəməyə göndərildi və oradan bu işin də izi itirildi. O vaxt söhbət gəzirdi ki, Mişiyevi həbsdən və güllələnməkdən yəhudi lobbisi qurtarıb...

İndi isə PKK və PYD-nin Suriyadan verdiyi tapşırığa əsasən, Azərbaycanda terror təşkilatının özəyini quran və onların tapşırığı ilə Bakıda məscid yandıran Namiq Nəsibov və Elnur Ələkbərovun işi...

Nəsibovu 15 il həbsdən hansısa lobbinin qurtarmış ola biləcəyini mən dəqiq bilmirəm. Ancaq cinayətkarlıqla mübarizədə, xüsusilə terrora qarşı mübarizədə belə istisnaların edilməsi ölkəmizə yaxşı heç nə vəd etmir, Azərbaycan vətəndaşlarının həyatı və təhlükəsizliyinin terrordan qorunmasına çox ciddi zərər vurur, hər bir insanın həyatını təhlükə altında qoyur. Hesab edirəm ki, müvafiq prokurorluq və məhkəmə orqanları bu işlə bağlı ictimaiyyətə ətraflı məlumat verilməlidirlər. Terrorçu şəbəkəyə bağlı adamın barmaqları ilə göstərdiyi azadlıq işarəsi də doğru çıxdı. "O, bu işdən həbs cəzası almadan qurtardı. Bizə isə bircə "afərin" demək qalır".

"Yeni Müsavat"ın əməkdaşı Namiq Nəsibovun məhkəmə zalından azad olunmasına Baş Prokurorluğun mətbuat xidmətindən münasibət öyrənmək üçün sorğu ilə müraciət edib. Adətən belə hallarda prokurorluq protestlə çıxış edir. Sorğumuza veriləcək cavabı təqdim edəcəyik.

❑ E.MƏMMƏDƏLİYEV

# Ali Məhkəmə "Qara kəmər"in ağ yalanlarının açılmasına "yox" dedi

## Hacı Məmmədovun həqiqətləri deməsi üçün daha bir şansı əlindən alındı; 2005-in bu günündə MTN-in keçirdiyi səs-küylü əməliyyatın 11 ili tamam oldu

**Bu gün, martın 10-da "Qara kəmər" əməliyyatının keçirilməsinin 11-ci ili tamam olur. Artıq ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin 2005-ci ildə həyata keçirdiyi bu əməliyyat sonradan elə onu keçirənlər tərəfindən gözdən salındı.**



Hacı Məmmədov

Hacı Məmmədov ibtidai istintaq zamanı rəisi olmuş Zakir Nəsirovun əleyhinə doğruluğuna böyük şübhələr olan ifadələr verdi. Buna baxmayaraq, Z.Nəsirov həbs olundu və sonradan məhkəmə onun barəsində ömürlük həbs qərarı verdi. Hacı Məmmədov məhkəməsində "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynovun qətlini öz üzərinə çəkdi və sifarişçi kimi vaxtilə iqtisadi inkişaf naziri olmuş Fərhad Əliyevi göstərdi. İfadə səsləndirildiyi andan doğruluğuna şübhələr vardı və bu gün də həmin ifadənin araşdırılıb-araşdırılmadığı bilinmir.

Qeyri-ciddi ifadələri ilə yadda qalan H.Məmmədov, bununla belə, məhkəməsində danışmağa, həqiqətin üzə çıxmasına yönəlik ifadələr verməyə ara-sıra cəhdlər göstərirdi. Amma son nəticədə Hacı Məmmədov danışmaqdan çəkinirdi. Hamı gec-tez Hacı Məmmədovun bildiklərini, ən azından bir qismini deyəcəyini gözləyirdi. Eldar Mahmudov vəzifəsindən çıxarılandan sonra bu gözləntilərin doğrulması üçün 10 illik fasilədən sonra real şərait yarandı. 2015-ci ilin dekabrında Hacı Məmmədov öz təşəbbüsü ilə Ali Məhkəməyə ərizə ilə müraciət etdi. Ali Məhkəmənin sədri Ramiz Rzayev onun ərizəsində göstərdiyi yeni halların araşdırılmasının mümkünlüyünü yoxlamaq üçün hakimlərdən birinə tapşırdı. Bu gün həmin hakimin adı açıqlanmır.

Maraqlı ehtimal budur ki, ərizənin araşdırılmasında Hacı Məmmədovun dəstəsinin işi üzrə hökm çıxarmış hakimin özündən - Əli Seyfəliyevdən məsləhətlər alına bilər. Məsələ burasındadır ki, Ə.Seyfəliyev Hacı Məmmədov və digərlərinin işi üzrə hazırda Bakı Ağır Cinayətlər Məhkəməsi adlanan, 2007-ci ildə Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə hökm oxuyan hakim olub. 2008-ci ildə isə Ə.Seyfəliyev Ali Məhkəmənin Cinayət Kollegiyasının üzvü təyin edilib. 2015-ci ildə Ali Məhkəməyə daxil olan H.Məmmədovun ərizəsinin araşdırılmasının da məhz Cinayət Kollegiyasına tapşırılmasına şübhə yoxdur. Hazırda kollegiyanın 7 üzvündən biri Ə.Seyfəliyevdir.

Məsələnin digər maraqlı tərəfi də H.Məmmədovun onunla bərabər həbs olunan şəxslərdən fərqli olaraq MTN-in İstintaq təcridxanasında saxlanılmasıdır.

Hacı Məmmədovun bacısı Arifə Məmmədova bir müddət əvvəl "Yeni Müsavat"a http://musavat.com/news/olke/haci-memmedovun-erizesi-ali-mehkemeye-daxil-oldu-yeni-gelish me_317357.html açıqlama verərək bildirib ki, qardaşını MTN-də son 10 il faktiki girov vəziyyətində saxlayıblar.

**Həmin yazıdan sitat:** "A.Məmmədovanın sözlərindən aydın olub ki, Hacı Məmmədov işin yenidən araşdırılmasını tələb edir. Buna görə də ona yeni vəkil tutulub. A.Məmmədova "Qabaqda proseslər var. Hacı nə bilirsə, açıb deyəcək. Tələsməyin, hər şey ortaya çıxacaq. Yenidən istintaq araşdırması olacaq" - deyə bildirmişdi.

**A.Məmmədova qardaşı ilə görüş zamanı etdikləri söhbətlərin mövzusunu da açıqlamışdı:** "Köhnə işlərdən danışdı, dedi ki, Zakir Nəsirov günahsızdır, çıxmalıdır. Onu məcbur ediblər. Vəkili gözləyir, yazıb verəcək. O istəyir ki, bütün bu məsələlər "ofisalnı" olsun. Hər şeyi açıb deyəcək".

**A.Məmmədova qardaşının illərlə susmasının səbəbinə də aydınlıq gətirmişdi:** "Necə desin? Ora yerdir? Özləri "julik"in böyüyü idilər *(ləğv edilən MTN-in keçmiş rəhbərliyini nəzərdə tutur-red.)* Hər şeyi açıb deyəcəyik. İndi ona təzyiqi kim edəcək? 10 ildir ki, oradadır... Onu bu illər ərzində təzyiq altında saxlayıblar orada. Hər şeyi bir-bir deyəcək".

Ali Məhkəmədən Hacı Məmmədovun müraciətinə baxılıb-baxılmaması ilə bağlı onun özünə məlumat göndəriləcəyini bildiriblər.

**"Yeni Müsavat"ın əməkdaşı H.Məmmədovun vəkili Afət Qazıyeva ilə əlaqə saxlayıb Ali Məhkəmədən cavab alıb-almamaları ilə maraqlanıb.**

**Vəkil "Yeni Müsavat"a deyib ki, onda belə bir rəsmi cavab yoxdur.**

***- Qeyri-rəsmi məlumatınız var?***

- Nə rəsmi, nə də qeyri-rəsmi cavab, məlumat yoxdur.

***- Hacı Məmmədovla sonuncu dəfə nə vaxt görüşmüsüz?***

- 1 həftə əvvəl görüşdük. Mən onunla görüşəndə elə bir cavab yox idi.

***- Vəziyyəti necə idi?***

- Şəkəri olan xəstədir.

***- Durumunu necə qiymətləndirirsiniz?***

- Düzdür, xəstədir, amma görüşmüşdük. Yəni şəkər xəstəsidir bu adam.

***- Görüşdən sonra sağlıq durumu ilə bağlı təəssüratınız necə oldu?***

- Adam şəkər xəstəsidir. Bundan artıq nəsə deyə bilmərəm.

***- Vəziyyəti qəfil pisləşə bilərmi?***

- Mən nəsə deyə bilmərəm.

***- Hacı Məmmədovla görüşəndə Ali Məhkəməyə müraciətlə bağlı müzakirə oldu?***

- Mən onunla sabah görüşəcəyəm. Orada olanda elə bir cavab yox idi.

***- Ali Məhkəmədən rədd cavabı alacağınız təqdirdə, yenidən müraciətiniz olacaq?***

- Qanunda elə bir şey var, müraciət etmək olar. Amma bir dəfə rədd cavabı alınandan sonra bir daha necə müraciət edəsən?! Mənə ümumiyyətlə heç bir cavab verilmədiyindən, konkret nəsə deyə bilmərəm. Cavabı alandan sonra konkret hərəkət etmək haqda düşünmək olar.

***- Hacı Məmmədovun Ali Məhkəməyə müraciətində yeni hallardan biri kimi DİN general-mayoru Zakir Nəsirovun əleyhinə vaxtilə doğru olmayan ifadə verməsini göstərməsi haqda məlumatlar var. Bununla bağlı nə deyə bilərsiniz?***

- Sizin məndən də artıq məlumatınız var.

***- Bizdə olan məlumatların doğru olub-olmadığını siz Hacı Məmmədovun vəkili olaraq təsdiqləyə və ya təkzib edə bilərsiniz...***

- Məndə cavab yoxdur. Ona görə sizə heç nə deyə bilmərəm.

***- Sizin Hacı Məmmədovla görüşlərinizə, konfedensial danışıqlar aparmağınıza şərait yaradılır?***

- Şərait yaradılır, görüşürük də. Lazım olan yerlərə də yazmışıq. Amma müraciətə cavab gəlməyib. Bəlkə də göndəriblər, amma mənə çatmayıb. Bizə 1 ay ərzində cavab verməlidirlər. Yəqin ki, cavabı bugünlərdə ala bilərik. Cavab məktubu Hacı Məmmədovun özünə göndərilməlidir, çünki ərizəni yazan odur.

***- Hacı Məmmədov ehtimal edirdi ki, Ali Məhkəmə işdə yeni hal olmadığını əsas gətirib ərizəsindəki göstərdiyi hallar üzrə yeni məhkəmə araşdırması təyin etməyə bilər...***

- Bilirsiniz, Hacı Məmmədov öz hüququndan istifadə edib yeni hallar üzrə yazıb verib. Burada ehtimallıq yer yoxdur. Nə ehtimal? O, hüququndan istifadə edib və olan vəziyyəti yazıb aidiyyəti orqana verib.

***- Nə yazıb vermişdi? Hansı yeni hallardan söhbət gedirdi?***

- Məhkəməyə təqdim etdiyi ərizədə onlar var.

***- Hansı hallardan söhbət gedirdi.***

- Bu haqda ərizəsində vardı.

***- Nə vardı?***

- Mənə cavab gələndən sonra, cavabı biləndən sonra nəsə deyə bilərəm. Sabah ora gedəcəyəm, bundan sonra nəsə deyə bilərəm.

Qeyd edək ki, Hacı Məmmədov və digərləri 2005-ci il martın 10-da MTN-in keçirdiyi "Qara kəmər" əməliyyatı zamanı həbs olunublar. 2006-cı ildən 2007-ci ilə qədər davam edən məhkəmə zamanı H.Məmmədov yarımçıq ifadələr verməklə, bir-birinə zidd olan fikirlər səsləndirib. Məhkəmənin keçirildiyi günlərdə mətbuatda onun həqiqəti gizlətməyə çalışdığı haqda çoxsaylı yazılar dərc olunub. Hacı Məmmədovun yarımçıq ifadələri ilə yaddaşlarda qalan məhkəmənin sonunda onun özü də daxil olmaqla, DİN-in keçmiş şöbə müdiri Kamil Sədrəddinov, nazirliyin Baş Cinayət Axtarış İdarəsinin keçmiş rəisi Zakir Nəsirov və digər 7 nəfər ömürlük həbs cəzasına məhkum ediliblər. Zamində olan 3 nəfərdən biri - İbrahim Bağırovun işi xitam edilib. Digər 2 nəfər - Azər Əliyev və Aqil Hüseynov isə 2 il şərti cəza alıblar. Onlar saxta sənəd hazırlamaqda, dələduzluq və sair bu kimi əməllərdə təqsirli bilinirdilər. Qalan 13 nəfərə isə 8 ildən 15 ilədək həbs cəzası verilmişdi. Məhkəmə Hacı Məmmədov və digər 26 nəfər barədə hökmü 2007-ci il yanvarın 19-da çıxarıb.

❑ E.MƏMMƏDƏLİYEV

# “Kreslosu silkələnən” icra başçıları - siyahıda kimlər var?

## Ekspertlər kadr islahatlarının davamlı olmasını istəyirlər

**İctimaiyyətdə “xırda padşahlar” adlandırılan icra başçılarının son günlər “kresloları silkələnir”. Ekspertlər hesab edirlər ki, manatın ikinci devalvasiyasından sonra rayonlarda baş verən etiraz aksiyaları icra başçılarının fəaliyyətlərinə hökumət tərəfindən nəzarəti bir qədər də artırıb. Nəticədə isə bir çox icra başçılarının fəaliyyətlərində ciddi nöqsanlar aşkarlanıb.**

Təsadüfi deyil ki, prezident İlham Əliyev martın 3-ü və 4-də imzaladığı sərəncamlarla Cəbrayıl rayonunun icra başçısı Mahmud Quliyevi, Laçının icra başçısı Akif Səlimovu və Salyan Rayon İcra Hakimiyyətinin başçısı Tahir Kərimovu vəzifəsindən azad etdi.

Vəzifəsindən azad edilən hər üç icra başçısı haqqında prezidentin sərəncamından öncə sosial şəbəkələrdə geniş müzakirələr aparılıb, onların fəaliyyətləri və hərəkətləri ictimaiyyət tərəfindən xeyli qınağa səbəb olmuşdu. Bu baxımdan, ölkə başçısının icra başçıları ilə bağlı sərəncamı ictimaiyyət tərəfindən müsbət qarşılandı.

Lakin nöqsanlı fəaliyyətləri səbəbindən xalqın qınağına səbəb olan icra başçıları ilə bağlı siyahı bu üç şəxslə bitmir. İctimaiyyətdə daha bir neçə icra başçısından narazılıqlar səsləndirilir. Məsələn, Binəqədinin icra başçısı Xaləddin İsgəndərovun, 2005-ci ildən Ağcabədinin icra başçısı vəzifəsində çalışan Şahin Məmmədovun, 2007-ci ildən Ağsunun icra başçısı olan Ənvər Seyidəliyevin, Yasamal rayon icra başçısı İbrahim Mehdiyevin adını çəkmək olar. Bu siyahını bir qədər də genişləndirə bilərik...

Əslində isə ölkədə icra başçılarına kifayət qədər geniş səlahiyyətlər verilib. Ekspertlər bildirirlər ki, onlar mövcud səlahiyyətlərinə əməl edərlərsə, həm şəhərlərin idarəetməsi, həm də xalqın güzəranı daha yaxşı ola bilər.


Şahin Məmmədov


İbrahim Mehdiyev


Xaləddin İsgəndərov

**İcra başçılarının fəaliyyəti ilə bağlı musavat.com-a açıqlamasında politoloq Fərhad Mehdiyev bu vəzifədə olan şəxslərin görməli olduqları işlər barəsində danışıb. O söyləyib ki, Azərbaycanda bələdiyyələrin səlahiyyətləri azdır. Bunun əksi olaraq, yerlərdə səlahiyyətlərin çoxu icra başçılarına aiddir:** “Bura abadlıq işlərindən tutmuş, əhalinin müəyyən sosial problemlərinin həll olunmasına qədər məsələlər daxildir. İdarəetmə formalarına gəldikdə isə bizdə icra başçılarının çoxunu ixtisaslaşmış mütəxəssis saymaq olmaz. Doğrudur, bu vəzifəyə təyin edilən şəxslər əsasən yerli strukturlardan gətirilirlər. Eyni zamanda onları xaricdə müəyyən təlimlərə aparırlar. Ancaq onların gördükləri işlər peşəkarlıqdan xeyli uzaqdır. Eyni zamanda ölkədə icra başçılarının korrupsiya əməlləri də var. Bu şəxslərin bəzilərinin ölkə üçün vurduqları zərərin gələcəkdə bərpası çox çətin başa gələcək. Məsələn, ölkədə yol kənarlarındakı boş yerlərin çoxu qeyri-şəffaf formada satılır. Sənədlərə baxdıqda görürük ki, guya bu yerlər kimlərəsə icarəyə verilib. Halbuki realda belə deyil”.

**Bəs icra başçılarını vəzifədən azad etməklə idarəetmədə hər şey qaydasına düşəcəkmi?**

**Məsələ ilə bağlı musavat.com-a danışan politoloq Natiq Miri bildirib ki, 1990-cı illərdən indiyə qədər onlarla icra başçısı dəyişdirilib:** “Ancaq mahiyyət etibarilə müsbət mənada heç nə dəyişməyib. Bu gün ölkədə xalqın razı olduğu icra başçısı tapmaq çətindir. Ümumiyyətlə, belə bir fakt yoxdur. Bu isə onu göstərir ki, təyinat zehniyyəti və idarəetmə sistemi dəyişməlidir. Bu iki əsas faktor dəyişmədən mahiyyət etibarilə idarəetmədə hansısa ciddi dəyişikliyin baş verəcəyini söyləmək olmaz. Ona görə də bu gün hətta xaricdə təhsil alan, təşəbbüskar və savadlı gənci belə istənilən rayona icra başçısı təyin etsələr, köhnə idarəetmə sistemi ilə o heç nə edə bilməyəcək. Eyni zamanda bu sistemdə icra başçılarını təyin etdirən xüsusi hakimiyyət şəbəkələri var. Hər bir icra başçısı hakimiyyətin içərisində olan müxtəlif şəbəkələrə bağlıdır. Buna görə də onlar bağlı olduqları şəbəkələrin korporativ maraqlarını güdürlər”.

**N. Miri bildirib ki, icra başçılarının seçki yolu ilə seçilməsi demokratik ənənənin başlanğıcı olardı:**

“Ancaq burada da əsas məsələ seçkinin necə keçirilməsi məsələsidir. Əgər bu seçkilərdə demokratik əsaslar olmayacaqsa, təyinat üsulu əsas götürüləcəksə, mahiyyət yenə də dəyişməyəcək. Yenə də seçkilər adı ilə xalqın seçmədiyi icra başçıları təyin olunacaq. Bu isə xalqın onlara qarşı narazılığını aradan qaldırmayacaq”.

❑ **Əli RAİS**

# Kazinolar olsun, yoxsa olmasın?

**Deputat Qüdrət Həsənquliyev Milli Məclisin sonuncu plenar iclasında müzakirə olunan idman mərc oyunları ilə bağlı məsələyə münasibət bildirən zaman təklif edib ki, Azərbaycanda xarici turistlər üçün fəaliyyət göstərən kazinolar açılsın.**

Deputatın bu təklifindən sonra “Avesta Concern”in rəhbəri, tanınmış iş adamı Hacı İbrahim Nehrəmlinin ona icazə verilərsə, kazino açaraq ölkəyə milyardlar gətirə biləcəyini söyləməsi isə bu mövzunu daha da aktuallaşdırdı. Bir çox şəxslər Hacı İbrahimi tənqid etsə də, o, “Yeni Müsavat”a açıqlamasında bu oyunun əslində qumar yox, mədəniyyət olduğunu söylədi. Hacı İbrahim bildirdi ki, onu tənqid edənlər kazinonun nə olduğunu bilməyənlərdir və zamanı gəlincə ona haqq qazandıracaqlar.

**Məsələ ilə bağlı musavat.com-a Ümid Partiyasının sədri İqbal Ağazadə də danışıb. O bildirib ki, əgər qeyri-leqal kazinolar varsa, leqalların olması elə bir təhlükə deyil:**

"“Kazinolar açılsın, yoxsa açılmasın” deyə, bir sual qarşısında qalmağın tərəfdarı deyiləm. Ancaq məsələnin mahiyyəti bundadır ki, turizmi inkişaf etdirmək istəyənlər, hotelçilik, yaxud da qeyri-leqal kazinolar varsa, leqallarının olması elə bir təhlükə deyil. Ölkənin problemi bu gün kazinoların olub-olmaması deyil. Hər bir şey qanun çərçivəsində tənzimlənməlidir. İstəyir kazino olsun, istərsə də digər bir şey. Qanun çərçivəsində tənzimlənən, dünyada olan hər bir şeyə “hə” deməyi bacarmalıyıq. Ancaq mən, kazino olarsa, bütün problemlərimiz düzələr, yaxud da bunun əksi barəsində düşünmürəm. Qanun icazə verirsə, qoy olsun".

**Deputat Fazil Mustafa musavat.com-a bildirib ki, kazino ilə bağlı iqtisadi motivli təkliflər səslənir:** “Çünki birinci növbədə iqtisadiyyatın vəziyyəti nəzərə alınaraq belə bir addımların atılması tövsiyə olunur. Ancaq bunun mənəvi tərəfləri var. Cəmiyyətdə onsuz da qumar mühiti bütün sahələrdə genişdir. Onsuz da qeyri-rəsmi şəkildə qumar oynanılır. Burada Azərbaycan vətəndaşları ilə bağlı bəzi məhdudiyyətlər qoyula bilər. Ona görə də hesab edirəm ki, bu məsələni faciəyə çevirmək doğru deyil. İnsanlar, hər halda, daha fərqli düşüncə ortaya qoymaq imkanına sahibdirlər. Təbliğat da aparıla bilər ki, ayrı-ayrı şəxslər bura getməsinlər, yaxud da hər hansı bir şəkildə bu istiqamətdə müəyyən addımlar atmasınlar. Hər halda, hesab edirəm ki, bu kimi problemlərin olması qaçılmazdır. Təbii ki, kazinoların ölkədə açılması turizmə böyük təsir göstərə bilər. Ancaq bütövlükdə bunun nə dərəcədə fayda verib-verməməsi zamanın məsələsidir”.


**İqbal Ağazadə:** “Əgər qeyri-leqal kazinolar varsa, leqalların olması elə bir təhlükə deyil”

**Məsələnin hüquqi tərəfləri barəsində isə hüquqşünas Müzəffər Baxış danışıb. O bildirib ki, əgər ölkədə kazinoların fəaliyyəti leqallaşarsa, onun yalnız xarici vətəndaşlar üçün nəzərdə tutulması konstitusiyaya ziddir:**

“İndiki halda bizim qanunlarımıza görə, ölkədə qumarxana açmaq cinayət məsuliyyətinə səbəb olan əməldir. Ancaq kim lisenziyalı qumarxana açırsa, o, cinayət məsuliyyətinə cəlb olunmur. Belə çıxır ki, əgər kazinolar açılarsa, onlara da lisenziyalar veriləcək. Qeydiyyatdan keçərək fəaliyyət göstərəcəklər. Əgər bunu xarici vətəndaşlar üçün nəzərdə tutublarsa, bu da doğru hal deyil. Əgər elə olarsa, bu, Azərbaycan Konstitusiyasının 25-ci maddəsi ilə ziddiyyət təşkil edir. Maddənin tələblərinə görə, hamı qanun və məhkəmə qarşısında bərabərdir. Kazino Azərbaycanda fəaliyyət göstərəcəksə, vətəndaş deyəcək ki, mən də oradan istifadə etmək istəyirəm. Sadaladığım faktlar baxımından konstitusiyanın 149-cu maddəsinə görə, həmin normativ hüquqi aktın heç bir hüquqi qüvvəsi olmayacaq”.

❑ **Əli RAİS**

# Rəfael Cəbrayılovun qanun layihəsinə sərt təpki

## Mehman Əliyev: “Onun layihəsi hakimiyyətin apardığı islahatlara qarşıdır”

## Fazil Mustafa: “Belə layihə səsverməyə çıxarılsa, əleyhinə səs verəcəm”

**Azərbaycan parlamentində Avropa İnsan Haqları Məhkəməsinin qərarlarının icrasından imtina ilə bağlı qanun layihəsi müzakirəyə çıxarıla bilər. Bununla bağlı yayılan xəbərlər ölkə gündəmindən düşmür.**


Rəfael Cəbrayılov

İdeyanın müəllifi olan Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü, deputat Rafael Cəbrayılovun qanun layihəsi ilə bağlı “Yeni Müsavat”a verdiyi geniş müsahibədə səsləndirdiyi bəzi fikirlər ciddi müzakirələrə səbəb olub.

Yaxın günlərdə qanun layihəsini tam hazırlayacağını deyən deputat Rusiyanı nümunə gətirərək bildirib ki, Rusiyada bu tipli qanun layihəsi var. Cəbrayılov daha irəli gedərək onu da qeyd edib ki, Rusiya Konstitusiya Məhkəməsinin sədri Valeriy Zorkinlə görüşərək, qanun layihəsini onunla müzakirə edib. Deputatın əsas narazılıq doğuran fikirləri də məhz budur. Çoxları hesab edir ki, bu fikirlər yumşalmaqda olan Azərbaycan-Qərb münasibətlərinə ciddi zərbə vura bilər. Çünki Azərbaycanın Rusiyanın təsiri ilə belə bir qanun layihəsini hazırlaması görüntüsü yaranar. Bu isə hazırkı durumda Azərbaycan tərəfə sərf etmir.

Ekspertlər hesab edirlər ki, Avropa Məhkəməsinin qərarlardan imtina ilə bağlı qanun layihəsinin Milli Məclisdə qəbulu Azərbaycanla Qərb arasındakı münasibətlərin yenidən pisləşməsinə səbəb ola bilər. Bu baxımdan layihənin qəbul edilməyəcəyinə inananlar da az deyil.

**“Turan” informasiya agentliyinin rəhbəri Mehman Əliyev deputatın hazırladığı qanun layihəsinin xalqın və dövlətin maraqlarına zidd olduğunu söylədi:** “Bu daha çox hakimiyyətdə olan qrupların maraqlarına uyğundur. Azərbaycanda məhkəmənin aliliyi yoxdur. Hesabatlar olmasa da, hamımıza məlumdur ki, ölkəmizdə müstəqil məhkəmə sistemi mövcud deyil. Ən böyük problemimiz budur. Avropa məhkəmələrinin bu günə qədər çıxardıqları qərarlar bunu sübut edib. Azərbaycan hakimiyyəti də o qərarları qəbul edib. Sadəcə olaraq, ölkə iqtidarı görür ki, bu qərarlar getdikcə onun üçün ciddi problemlərə çevrilir. Ona görə də bu prosesi dayandırmaq istəyir. Sözün açığı, burada alver predmeti də özünü göstərir. Yəni siz bizi sıxsanız, biz Rusiyaya tərəf gedəcəyik. Bir növ şantajdır. Aparılan müzakirələr, hazırlanan qanun layihəsi xalqın və dövlətin əleyhinədir. İllərdir ölkəmizdə azad məhkəmə, azad sahibkarlıq olmayıb. Bunu iqtisadi böhran da sübut etdi. Ona görə də xalq və dövlət çətin vəziyyətə düşüb. Bunun başında duran Rəfael Cəbrayılov kimi şəxslərdir. Bu tipli qərarlar, layihələr təsirsiz olacaq. Onsuz da hakimiyyət islahatlara getməyə məcbur olacaq. Artıq bu islahatlara da başlayıblar. Hazırlanan bu qanun layihəsi birbaşa hakimiyyətin apardığı islahatlara qarşıdır”.

**“Turan” rəhbəri deputatın Avropa Şurası ilə bağlı dediklərinə də toxundu:** “Bu, Avropa Şurasının daxili reqlamentidir. Azərbaycan o reqlamenti qəbul edib. Əgər razı deyillərsə, əvvəlcə gedib Avropa Şurasında o reqlamenti dəyişmək üçün təkliflər irəli sürsünlər. Bu təkliflər keçər-keçməz, sonrakı məsələsidir”.

**Mehman bəy Cəbrayılovun Zorkinlə görüşünə də münasibət bildirdi:** “O, sadəcə, demək istəyib ki, Rusiyanın Konstitusiya Məhkəməsinin hakimi ilə görüşüb. Göstərmək istəyir ki, görün, biz nə qədər yaxınıq. Burada başqa bir şey yoxdur. Gözüm aydın ki, kimləsə görüşmüsən”.

**Millət vəkili Fazil Mustafa həmkarının fikirlərini sərt tənqid edərək, belə bir qanun layihəsinin parlamentin müzakirəsinə çıxarılacağı təqdirdə, ona qarşı çıxacağını söylədi:** “Əlbəttə, bu, Azərbaycan-Qərb münasibətlərini gərginləşdirə bilər. Çox yanlış yoldur. Rusiyaya sanksiya tətbiq olunub, ciddi problemləri var. Ona görə də Rusiya beynəlxalq qərarları qəbul etməməklə bağlı addım atıb. Onsuz da onların atdıqları addımlar beynəlxalq hüquq normalarına ziddir. Bizim də Rusiyanın yedəyində bu addımları atmağa çalışmağımız, hər halda, xoşagələn perspektiv vəd etmir. Düşünürəm ki, təhlükəli yol seçməkdəyik. Durduğumuz yerdə Avropa qurumları ilə müharibə vəziyyətinə gəlirik. Məncə, ölkəmizin dövlət maraqları bunu tələb etmir ki, belə təhlükəli yol seçək. Bu yol seçilərsə, hər halda, Avropa qurumları ilə əməkdaşlığa son qoyula bilər. Nə dərəcədə faydamız olacaq, açığı, bunu bilmirəm. Amma Rusiyanın buna görə bizi hansısa bir formada mükafatlandıracağını gözləmirəm. Qanun layihəsi müzakirəyə çıxarılarsa, kəskin şəkildə etiraz edəcəm. Əvvəldən də bildirmişəm ki, belə bir layihə olsa, əleyhinə səs verəcəm”.

❑ **Cavanşir ABBASLI**



# Xələddin müəllimin kurqanları

Zamin HACI
zaminhaci@gmail.com

**Daimi oxucularımızdan hörmətli Yusif bəy zəng vurub deyir ki, ola bilsin yapistlərin tamah dişləri vardır. Obrazlı olaraq yox, gerçəkdən belə dişləri var və qocalıb çürüdükcə yenilərini əkdirirlər. Kim bilir... Bəlkə də Nazirlər Kabineti nəzdində Tamah Dişlərinin Əkilməsi Dövlət Komitəsi yaradılıb.**

Ancaq mən bu diş məsələsinə çox da aludə olmağın tərəfdarı deyiləm, çünki bunlar ölkəmizin hissələrini, təbii sərvətlərimizi, insanları adətən dişləmədən, diri-diri udurlar. Vaxt azdır, çeynəməyə sərf etmək lazım deyil. O üzdən bir də baxırsan ki, indicə salam verdiyin adamı iki metr aralanmamış "happ" elədilər, ötürdülər mədəyə. Çox insanımızı udublar. Sizə elə gəlir onlar həyatda yaşayır, Günəşdən, çiçəkdən, arıdan-böcəkdən həzz alırlar. Qətiyyən. Onlar yapistlərin ölçüsüz qarnında oturub hərdən nəsə səs çıxarırlar.

Diş əkilməsi mövzusu mənə Buratinonun nağılını xatırlatdı. Orda ata Karlo Buratinoya 5 qızıl pul verir, pişik Bazilio və tülkü Alisa isə kələk gəlib pulu onun əlindən alırlar. Deyirlər "Axmaqlar ölkəsi" deyə bir yer var, gəl gedək ora, orda ağacın dibində pulları basdır, "kreks, freks" de, ağac qızıl pullardan yarpaq açacaq. Həmin ağacın bitdiyi çöl isə "Möcüzələr çölü" adlanırdı. Eynilə bizim Azərbaycan. Pulu əlindən alınan xalqı da su arxına atmağa ehtiyac yoxdur, özü intihar eləyir.

Əsl nağıllar diyarında yaşayırıq. Binəqədinin kralı, icra başçısı Xələddin müəllim bir vaxtlar bütün rayon ərazisində təpəciklər qayırmışdı. Bu təpəciklər qədim türk xaqanları ölərkən qəbirləri üzərində ucaldılan kurqanlara oxşayırdı. Kim bilir, bəlkə də Xələddin müəllim rayondan yığdıqlarını o kurqanların altında basdırırdı. Ancaq hazırda Xələddin müəllimin silsilə təpələrinin durumu yaxşı deyil. Otlar quruyur, çiçəklər baxımsızlıqdan süpürgəyə dönüb, hətta bir çox təpələri qazıb yerlə bir edirlər. Bəlkə qızılları axtarırlar? Mən ən çox Bakının girişindəki təpənin üstündə çiçəklərdən düzələn iki butaya görə narahatam. Xələddin müəllim neft pulu azalan kimi o butaları yolub yerinə ot əkdi. Necə deyərlər, verilən buta, düşdü it-bata.

O yandan da başqa oxucular narazılıq məktubları yazırlar, deyirlər Binəqədinin yolları itin günündədir, nə üçün buna bir əlac edən yoxdur, yayda tozdan, qışda palçıqdan yeriyə bilmirik. Nə üçün yerimək istəyirsiniz? Qalın rayon ərazisində, rayonu sevin. Öz millətimizin palçığı da əzizdir, nəinki xaricilərin güzgü kimi asfaltı.

Xarici demişkən, mən son günlər Amerika Birləşik Dövlətlərinin necə əfəl respublika olduğunu bir daha başa düşdüm. Hələ nə yaxşı deputatxanamız onlara sanksiya qoymadı, yoxsa lap batardılar. Təsəvvür edin, guya hegemon dünya lideri olan bir dövlət neçə aydır... bir telefonun kodunu aça bilmir! Qısa yazsam, məsələ belədir: keçən il Amerikada bir terrorçu 14 nəfəri güllələyib öldürüb, özünü də yanılmıramsa, polis məhv edib. Terrorçunun "Ayfon" telefonu var, ABŞ xüsusi xidmətləri bunun kodunu açıb içərisinə baxmaq, zəruri məlumatlar əldə etmək istəyir. Ancaq bir problem var ki, 10 dəfə kodu yanlış yığanda telefon içindəki informasiyanı avtomatik məhv edir. İndi dövlət "Apple" şirkətindən xahiş edir ki, kodu açmaqda yardım eləsinlər. Şirkət isə dövlətə üç barmağın konfiqurasiyasını göstərir, deyir açmırıq, belə presedent yaratsaq gələcəkdə hər kəsin telefonuna burun soxarsınız! İş məhkəmədə gedir, gah dövlətin xeyrinə, gah şirkətin xeyrinə qərarlar çıxır, hələlik bir sonuc yoxdur.

Mənim yadıma gəlir ki, 2003-cü ildə yapistlər bir qrup müxalifətçini şərləyib tutanda bizim mobil telefon şirkətləri onların yazışma və zənglərini hakimiyyətə beş qəpiyə, yəni pulsuz-parasız, məhkəməsiz-filansız satmışdılar. İndinin özündə də hər operatorun ofisində bir çekist oturub, müxalif fikirli insanların telefonunun başına istənilən oyunu açırlar. Amerika isə bunu bacarmır.

Ona görə də Səyavuş müəllim düz deyirdi, biz Amerikadan güclü dövlətik.

# "Stratfor"dan və eks-səfirdən yeni müharibə xəbərdarlığı - böyük layihələr risk altında

"Rusiyanın cavabı 8 il öncə Güney Qafqazda verilməli idi"; Türkiyə ilə qarşıdurma ehtimalı energetik projelərdə öncül yer alan Azərbaycanı da çevik siyasət yürütmək zorunda qoyur; "Putini necə ram etməli" sualı Qərbi indi daha çox narahat eləməkdədir...



**Qərblə Rusiya arasında Ukraynaya görə yaranan ziddiyyət Ankara-Moskva münasibətlərindəki kritik durumla bir az da təhlükəli çalar alıb. Son vaxtlar bu barədə həm Qərb, həm də rusiyalı analitiklər tez-tez və daha ucadan danışır, mövcud durumun mümkün sonuclarını hesablamağa çalışırlar.**

Proqnozlar isə yumşaq desək, ürəkaçan deyil. Söhbət ələlxüsus Azərbaycan, Gürcüstan, Ermənistan, Türkiyə və Rusiyanın yer aldığı Qafqaz bölgəsi və onun ətrafındakı mürəkkəb və qığılcıma bənd durumdan, habelə həlli uzanan Qarabağ, Abxaziya və Cənubi Osetiya problemləri ilə ağırlaşan situasiyadan gedir.

Məlumdur ki, Güney Qafqaz Qərb üçün böyük enerji-nəqliyyat xətlərinin keçdiyi, ən azı, 50 milyard yatırım qoyulduğu və qoyulmaqda davam edən çox önəmli bir regiondur. Güclənən müharibə ehtimalları, çözülməyən və Rusiyanın arxasında durduğu etnik-ərazi münaqişələri isə strateji əhəmiyyətli hazırkı və planlaşdırılan layihələrə *(Bakı-Tiflis-Ceyhan, Bakı-Tiflis-Supsa, Bakı-Tiflis-Ərzurum, inşası sürətlənən Cənub Qaz Dəhlizi, ilin sonunda təhvil veriləcək Bakı-Tiflis-Qars dəmir yolu xətti və s.)* ən ciddi təhlükə kimi qiymətləndirilir.

***

Bu təhlükələrin episentrində şübhəsiz ki, Rusiya dayanır. ABŞ, Avropa Birliyi, NATO qarşısında duran əsas problem də Rusiya faktorunu necə təsirsiz hala gətirməklə bağlıdır. Belə görünür, Qərb hələ ki onun yüz faizli məqbul yolunu tapa bilmir. Fakt budur ki, Vladimir Putin prezidentliyə qayıdandan sonra demokratiya paytaxtlarının Kremllə bu problemi dialoq yolu ilə çözmək, ona yerini göstərmək səyləri fiasko olub. Həm də o səbəbə ki, Putin baş nazir olanda (2008) artıq Gürcüstanda Rusiyanın geosiyasi qələbəsi ilə yekunlaşan "5 günlük müharibə" bitmişdi. Bu üzdən dialoq üsulunun artıq gecikmiş və səmərəsiz sayan Qərb siyasiləri də az deyil.

"Moskvanın cavabı 8 il öncə Güney Qafqazda verilməli idi". **Bunu ABŞ-ın Rusiyadakı eks-səfiri Tomas Pikerinq** "Amerikanın səsi" radiosuna söyləyib. Onun qənaətincə, 2008-ci ildə Gürcüstanla avqust savaşından sonra Rusiyanın cəzalandırılmaması Ukrayna və Suriya böhranlarının başlanmasına şərait yaratmış olub: **"Gürcüstana gəlincə, Tiflisin Rusiya ilə ehtiyatlı davranması onun Moskvanın hər sözünə qulaq asması demək deyil. Gürcüstan gərək abxazlar və osetinlərə alternativ təklif etsin. Tiflis onlara anlatmağı bacarmalıdır ki, gələcək Moskvada yox, Gürcüstandadır".**

Yada salaq ki, 2008-ci il avqust müharibəsində Cənubi Osetiyadakı separatçı qrupları zərərsizləşdirmək istəyən rəsmi Tiflis muxtariyyətin ərazisinə daxil olarkən qəflətən rus ordusu ilə qarşılaşıb. Məhz rusların sayəsində Gürcüstan savaşı məğlub başa vurub. Bundan sonra Moskva Gürcüstanın tərkib hissəsi olan Abxaziya və Cənubi Osetiyanın müstəqilliyini rəsmən tanıyıb, orada böyük hərbi kontingent yerləşdirib. Doğrudur, həmin dövrdə Qərb Moskvaya qarşı sərt bəyanatlar verib, nefti 30 dollar səviyyəsinə qədər endirsə də, bunların heç biri nəticə verməyib.

***

Rusiyanı (Putini) necə ram eləmək sualı hələ ki, Qərb dünyası üzərində Domokl qılıncı kimi asılı qalmaqdadır. Problemə toxunan ABŞ-ın"Stratfor" kəşfiyyat-analitik mərkəzinin banisi Corc Fridman isə bu arada Avropada yeni müharibənin başlama ehtimalından danışıb. Onun fikrincə, münasibətlərin mövcud sistemindəki prinsipial ziddiyyətlər beynəlxalq vəziyyəti kəskinləşdirə bilər.




Fridmana görə, Avropa dövlətləri arasında uzun müddətdir müharibələrin olmaması onların yenidən olmayacağına zəmanət vermir. O hesab edir ki, müasir dövrdə beynəlxalq münasibətlərin transformasiyası böyük müharibəyə gətirib çıxara bilər. Analitik Şərqi Avropa, Yaxın Şərq və Sakit Okeanda müharibələrin baş verə biləcəyini proqnozlaşdırıb. Avropada Polşa, Türkiyə ilə Rusiya arasında münaqişəni mümkün sayıb.

***

Rusiyanın yeni təcavüzünü nəzərə alan ABŞ isə son məlumatlara görə, Avropada çoxsaylı tanklar və döyüş vertolyotları cəmləşdirməyi qərara alıb. Bu haqda Pentaqondakı mənbələrə istinadən "Bloomberg" agentliyi yazıb (Virtual.org). Xəbərə əsasən, ABŞ gələn il qitədə uzunmüddətli əsasda özünün ən yaxşı zirehli texnikalarını, "tank qatilləri" kimi tanınan döyüş vertolyotlarını və Rusiyanın zirehli transportyorlarını məhv etmək üçün piyada döyüş maşınlarını yerləşdirəcək.

Plana əsasən, hərbi texnika uzunmüddətli əsasda, Rusiya ilə mümkün hərbi qarşıdurma zamanı Avropaya yeridilən Amerika qoşunlarının istifadəsi üçün yerləşdiriləcək. **"Biz Ukrayna hadisələrindən dərs çıxararaq olduqca gərgin işləyirik"**, - deyə Amerikanın Avropadakı qoşunlarının komandanı, general Ben Hoces qeyd edib.

"Bloomberg" onu da yazır ki, soyuq müharibə başa çatandan sonra ABŞ Avropadakı hərbi qüvvələrinin və texnikasının miqdarını azaltmışdı: **"İndi ABŞ hərbi texnikasının Avropaya qayıtması Rusiyanı cilovlamaq məqsədi daşıyır. Prezident Barak Obama 2017-cü il üçün bu proqrama 3.4 milyard dollar ayırmağı nəzərdə tutur. Plana görə, ABŞ Avropaya M1A2 "Abrams" tanklarını və "Apache", UN-60 "Black Hawk" vertolyotlarını yerləşdirəcək. Habelə Avropadakı hərbçilərinin sayını artıracaq. Hazırda ABŞ Avropada 30 minlik kontingentə malikdir".**

Generalın sözlərinə görə, hazırda Rusiya ilə birbaşa hərbi toqquşma riski aşağı olsa da, məqsəd bu toqquşma ehtimalını daha da azaltmaqdır. Pentaqonda Rusiya siyasətini kurasiya edən Evelin Farkas isə deyib ki, Rusiya tərəfi ABŞ-ın çevik reaksiya verməyə qadir olan peşəkar qüvvələrinin olduğuna əmin olmalıdır. **"Əgər Rusiya hansısa NATO ölkəsinə qarşı addım atmağa qərar versə, bizim Avropadakı qüvvələrimizə bir daha nəzər salmalı olacaq"**- keçmiş Pentaqon rəsmisi deyib.

NATO ölkəsi deyərkən təbii ki, alyansın cənub cinahı sayılan Türkiyə də nəzərdə tutulur. Kremlə bu xüsusda analoji mesajı iki gün öncə Türkiyə baş naziri Əhməd Davudoğlu ilə Brüsseldə görüşən NATO baş katibi Yens Stoltenberq də vermişdi...

***

Qərb əlbəttə ki, nüvə dövləti Rusiyanın hazırkı rəhbərliyinin mümkün təhlükəli hərbi kaprizlərini önləmək üçün başqa önləyici tədbirlər də görür. Söhbət Moskvaya qarşı maliyyə-iqtisadi sanksiyaların tətbiqindən gedir. Dünən Avropa Birliyi ölkələri Rusiya əleyhinə sanksiyaların müddətini daha 6 ay uzadıb.

Bundan az öncə isə Avropa Komissiyası Rusiyadan yan keçən və Azərbaycan qazının ("Şahdəniz 2") Avropaya çatdıracaq Cənub Qaz Dəhlizinin üçüncü mühüm kəsimi olan TAP-ın inşasını təsdiqləmiş, bununla da Rusiyanın ümidini itirmədiyi "Cənub axını"nın perspektivini bir az da sıfırlamışdı. Demək, yaranmış situasiya rəsmi Bakını da Rusiya amilini ciddiyə alaraq, çevik addımlar atmaq zorunda qoyur. Təbii ki, qardaş Türkiyə ilə birgə, sinxron şəkildə.

❑ **Analitik xidmət**

# Moskvadakı terror həyəcanının pərdəarxası...

## Qabil Hüseynli: "Burada məqsəd Rusiya paytaxtından qeyri-rus millətlərini çıxarmaq da ola bilər"

**Martın 8-də Moskvanın Rijski bazarında bomba olması və buna görə 2000 nəfərin evakuasiya edilməsi barədə yayılan xəbərlər dünya mətbuatını zəbt etdi. İnformasiyanı yayan TASS agentliyinin məlumatında bildirilir ki, naməlum şəxslər zəng edərək, bazarda bomba olması barədə hüquq-mühafizə orqanlarına məlumat veriblər.**



Bazarda aparılan axtarışlar nəticə verməsə də, terror həyəcanı Rusiyada aradan qalxmayıb. Dünyada yayılan xəbərlərə münasibət birmənalı olmayıb. Müxtəlif versiyalar irəli sürülüb. Terror xəbərinə inanmayanlar çoxluq təşkil edirlər. Belə iddialar səslənir ki, bu xəbərin yayılmasında Rusiya prezidenti Vladimir Putinin əli var. Səbəb kimi də Ankarada baş verən son terror hadisəsi göstərilir. Bildirilir ki, Rusiya Ankara terroru ilə bağlı suçlandığını yaxşı bildiyindən, üzərinə dikilən baxışları yayındırmaq üçün belə bir addım atıb. "Rusiya da terrordan sığortalanmayıb" fikirlərini dünyanın diqqətinə cəmləmək üçün...

Terror xəbəri ilə bağlı daha bir versiya var. Belə ki, Putinin xalq arasında dəstəyini artırmaq, rus xalqını ətrafına cəmləmək üçün ənənəvi üsullardan istifadə etdiyi deyilir. Bu iddia bir qədər inandırıcı görünür. Çünki heç bir xalq ölkələrində sabitliyin pozulmasını istəmir. Bunun üçün lazım gələrsə, diktatorun ətrafında belə birləşə bilər...

**Politoloq Qabil Hüseynli bildirdi ki, dünyanın istənilən şəhərində terror hadisəsi törədilə bilər:** "Əgər Nyu-Yorkun iki qülləsində terror hadisəsi törədilə bilirsə, demək, dünyanın istənilən şəhəri bundan sığortalanmayıb. Moskvada guya iki gün öncə terror hadisəsinin olacağı barədə xəbərlər yayıldı. Bununla əlaqədar iki mindən çox adam şəhərdən evakuasiya edildi, fövqəladə vəziyyət elan olundu, eyni zamanda şəhərin ətrafında hava hücumlarından qorunmaqla bağlı yeni müdafiə sisteminin qurulması ilə əlaqədar göstəriş verildi. Amma terrorla bağlı heç bir hadisə baş vermədi. Xüsusi xidmət orqanları olan bir ölkədə, əgər terror törədiləcəyi barədə məlumat gəlirsə, xəbər özünü doğrultmursa, belə fikir söyləmək mümkündür ki, Rusiya bunu sadəcə imitasiya edir. Ölkədə yalandan həyəcan yaratmaqla Rusiyanın terror təhlükəsi ilə üz-üzə qaldığını öz xalqına aşılamaq istəyir. Bu, Putinin reytinqini qorumaq və Rusiyanın təhlükəsizliyi ilə bağlı guya canfəşanlıq etməsi rəyini xalq arasında yaratmaq istəyindən doğur. Bütün bunları nəzərə alsaq, qeyd etmək olar ki, Rusiya üçün terror təhlükəsi hələ ki gözlənilmir. Moskvada olan qeyri-rus millətlərini çıxarmaq, onların əllərində olan kommersiya bazarlarını almaq üçün belə xəbərlərdən istifadə etmək məqsədləri ola bilər. Bunu terrorun siyasi məqsədlər üçün istifadə edilməsi kimi dəyərləndirirəm. Hazırda Rusiyanın paytaxtı üçün hər hansı bir terror təhlükəsi ola bilməz".

**Politoloq Türkiyədə baş verən terror hadisəsi ilə bağlı Putin hakimiyyətinin belə addım ata biləcəyi qənaətindədir:** "Ankarada baş vermiş terror hadisəsində Rusiyanın barmağının olması barədə xəbərləri təkzib etmək, bununla Rusiyanın terrordan əziyyət çəkməsi barədə subyektiv fikir yaratmaq məqsədilə də rus hakim dairələri belə xəbərlər yaya bilərlər. Ehtimal etmək olar ki, dünyanın xüsusi xidmət orqanları bu məsələni araşdıracaqlar. Ümumi analiz apardıqdan sonra açıq şəkildə olmasa da, mətbuat orqanlarına xəbərlər sızdırılacaq və beləliklə, bu hadisə ilə bağlı bilgilər ortaya çıxacaq. O zaman Rusiyanın hansı məqsədlərlə bu məsələni ortaya atdığı gün işığı kimi aydın olacaq. Terror xəbəri ilə bağlı Rusiya tərəfinin də açıqlamaları olacaq. O, Rusiya siyasi rəhbərliyinin mövqeyini əks etdirəcək. Ola bilsin ki, konkret adlar çəkilməsin. İŞİD, yaxud hər hansı bir ölkənin adı çəkilə bilər. Amma Qərblə bağlı hansısa bir dövlətin adını çəkmək mümkün deyil. Çünki Qərb dövlətləri terrora münasibətdə barışmaz mövqeyə sahibdirlər. Belə ittihamlar olarsa, bu, Rusiyanın terror xəbəri ilə bağlı ifşasına gətirib çıxara bilər. Onu qeyd edim ki, hazırda Rusiya kifayət qədər təkəbbürlü davranır. Özünün düşdüyü vəziyyəti üzə vurmaq istəmir. Xüsusilə yazıq görkəm almış, məşəqqətlərə düçar olmuş ölkə kimi özünü göstərmək istəmir. Əksinə, əzələ nümayişi ilə məşğuldur. Ona görə də güman etmirəm ki, Rusiya ətrafına müəyyən ölkələri yığmaq məqsədilə terror xəbərini ortaya atsın".

❑ **Cavanşir ABBASLI**

# Aİ ilə Türkiyə arasında viza rejimi ləğv edilir

## Ekspertlərin sözlərinə görə, bunun Azərbaycana da təsirləri ola bilər, çünki...

**Avropa İttifaqı ilə Türkiyə arasındakı viza rejimi iyunun sonunadək ləğv ediləcək. APA-nın verdiyi məlumata görə, bunu Türkiyənin baş naziri Əhməd Davudoğlu Avropa İttifaqı-Türkiyə sammitinin yekunlarını şərh edərkən bildirib. "İyunun sonunadək, Niderlandın sədrliyinin başa çatmasınadək, viza rejimi üzrə proses bitəcək",- deyə Ə.Davudoğlu vurğulayıb.**



Həmçinin Ə.Davudoğlu bildirib ki, martın 18-də Brüsseldə qaçqın böhranı ilə bağlı birgə fəaliyyət planının qəbul edilməsi planlaşdırılır. Bununla belə, Fransa prezidenti Fransua Olland bildirib ki, qərarın qəbul olunması Türkiyənin Avropa İttifaqı tərəfindən irəli sürdüyü 72 öhdəliyin yerinə yetirilməsindən asılıdır. Ekspertlər isə bildirirlər ki, Aİ ilə Türkiyə arasında olan bu müzakirə və anlaşmanın Azərbaycana da təsirləri ola bilər.

**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, əslində bu danışıqlar çoxdan gedir: "Türkiyə ilə Avropa Birliyi arasında hətta üzvlüklə bağlı 20-yə yaxın başlıq da var. Hər dəfə bu başlıqlardan biri fəsil-fəsil açılaraq müəyyən şərtlərin yerinə yetirilməsi gözlənilir. Bu proses 2009-cu ilə qədər sürətlə gedirdi. Sonra Türkiyə hökumətinin atdığı bəzi addımlar Avropa Birliyi ölkələri tərəfindən suallarla qarşılandı. Əsasən də Liviyaya olan basqılarla əlaqəli suallar oldu. Bu bir az qaçqın məsələsi, Suriya və İraqdan Avropaya qaçqın axını məsələsi gündəmdə daha çox yerini aldıqdan sonra Türkiyə ilə Avropa Birliyi arasında danışıqlar daha da intensivləşdi. Son olan anlaşmada həm Türkiyə qaçqınların Türkiyə üzərindən Avropaya keçməsinə müəyyən sədlər çəkəcək, bunun müqabilində qaçqın düşərgələrində saxlanması üçün təqribən 3,5 milyard avroya vəsait alacaq Avropa Birliyindən. Həm də Avropa Birliyinə üzvlük məsələsi sürətlənib. Bunun da əsas addımlarından biri kimi bu ilin ortalarından, təqribən ikinci yarısından Türkiyə vətəndaşlarının Avropaya vizasız gediş-gəlişi məsələsi həll olunmalıdır. Bu, Türkiyə üçün çox pozitiv addımdır. Türkiyə vətəndaşlarının vizasız Avropaya getməsi Avropa üçün də pozitiv addımdır. Çünki ən azından Türkiyədə 76 milyonluq əhali Avropaya vizasız gedib-gələcəksə, bu, Avropa ölkələrinin turizminə ciddi dəstək olacaq. Xarici ölkələrə səfər etməyi çox sevən bir cəmiyyət var Türkiyədə. Amma bir çox şərtləri də var bu məsələnin. Əsas şərtlərdən biri də bəzi ölkələrlə vizasız gediş-gəlişin daha ciddi hal alması, yəni Avropa Birliyinə daxil olan ölkələrlə deyil, digər ölkələrlə viza rejiminin sərtləşdirilməsi, ərəb ölkələri ilə bağlı vizaların sərtləşdirilməsi kimi məsələlər gündəmə gələcək. Çox təəssüf ki, Azərbaycan Avropa Birliyi ilə patnyorluq sazişində çox geridədir, Gürcüstandan, Moldovadan, Ukraynadan geridədir. Bu patnyorluq sazişinin imzalanması gecikdikcə, Azərbaycan vətəndaşlarına da Türkiyə bir müddət sonra viza tətbiq edə bilər. Bu, şərtlərdən biri kimi ola bilər. Amma bu, Ukraynaya, Moldovaya aid olmayacaq. Çünki həmin ölkələr də artıq Avropaya vizasız gediş-gəliş məsələsində çox böyük irəliləyişə nail olublar və patnyorluq məsələsində xeyli dərəcədə bizdən öndədirlər. Buna görə də Azərbaycan-Türkiyə münasibətlərinə müəyyən təsir göstərə bilər. Azərbaycan vətəndaşlarının illərdir Türkiyəyə vizasız gediş-gəliş məsələsi bir az sərtləşə bilər. Bu nöqteyi-nəzərdən məsələnin Azərbaycana da təsirləri olacaq".

❑ **RÖYA**

# Rusiya məğlubedilməzdirmi?

**Hüseynbala SƏLİMOV**



**Bir çox şeyləri cəmiyyətlərin mental qatlarında axtarmaq lazım gəlir. Rusiyanın dürlü nəşrlərinin yazdıqlarını oxuyanda bir məsələyə təəccüb edir və heyrətini gizlədə bilmirsən: elmlər doktorunun fikirləri necə də adi bir əsgərin məntiqinə bənzəyir!**

Yazılarda isterika ilə çulğalaşmış bir eyforiya var. Az qalırlar desinlər ki, budur, biz növbəti xilaskarlıq missiyamızı yerinə yetirdik, hətta Suriyanı da azad etdik!..

Doğrusu, mən rus nəşrlərində tamam başqa bir şey axtarıram. Onun adını elə belə də adlandırardım: "Krım da bizimdir! Sonra?"...

Bu yaxınlarda belə başlıqlı yazıya rast gəldim. Dərhal da düşündüm ki, axtardığımı tapmışam. Amma yox, bu mənim gözlədiyim yazı deyildi, bir iqtisadçı cənabın Krımı necə qurmaq haqda "fikir"ləri idi...

Əvəzində onlarla başqa yazılar peyda olur. Bilirsiniz, maraqlısı nədir? Hətta bizim hakimiyyət təmsilçiləri belə açıq-aşkar demokratiyanı söymürlər. Özlərini elə göstərməyə çalışırlar ki, guya Yer üzünün birinci demokratları elə bu adamlardır...

Rusiya nəşrlərində isə demokratiyanı yamanlamaq adi bir hala çevrilib və hər yazıda məşhur suala ilişirsən: Demokratiya bizə nə verdi?

Durub demokratiyanın Rusiyaya nə verdiyini və yaxud da vermədiyini araşdırmaq fikrim yoxdur, xüsusən də nəzərə alanda ki, demokratiya onunçün çoxdan keçmişdir. Keçmişi qurdalamağın mənası varmı?

Rusiya tarixində bəlkə də iki-üç adam olub ki, onları hansısa yaxınlaşmada demokrat adlandırmaq olardı. Əksər ruslar isə heç vaxt demokratiya və azadlıq nə olduğunu bilməyiblər. Deyirlər ki, bizi Rusiyanın böyüklüyünə görə sevmirlər! Belədirmi?

Düşünmürəm. Ruslardan ona görə qorxurlar ki, bu cəmiyyət heç vaxt azadlığın nə olduğunu bilməyib...

Rusların məşhur zərb-məsəli var: "Döyürsə, deməli sevir!". Hakimiyyətə yönəlik baxış da, elə münasibət də həmişə belə olub: döyürsə, deməli sevir...

İndi V.Putinin siyasətini çək-çevir edəndə də görürsən ki, bu zərb - məsəl nə qədər yerinə düşür!..

Ruh olmayanda ruhdan danışmaq nə qədər yerinə düşür? Bəlkə elə dünyanı qorxudan bu iki yüz milyonluq qara kütlədir?!. Ən maraqlısı odur ki, həmin o qara kütlə özünü məğlubedilməz hesab edir...

O.Bismarkın sözlərini sitat gətirirlər. O, deyibmiş ki, rusları məğlub etmək mümkün iş deyil, amma onlara yalançı, yalnış dəyərlər təlqin etmək lazımdır və o halda özləri özlərini məğlub edəcəklər...

Ən maraqlısı nədir? Ruslar yanlış, yabançı dəyərlər deyəndə demokratiyanı, azadlığı və ya layiqli həyatı nəzərdə tuturlar...

"Dözərik!" orta statistik rusun ən çox işlətdiyi sözdür. Nəyə dözərik? Niyə də dözməliyik axı? Özlərinə belə suallar vermirlər. Belə fakta diqqət yetirirlər ki, mövcud olduğu tarixin üçdən ikisini Rusiya dövləti döyüşlərə və müharibələrə sərf edib...

Olsun. Döyüş ruhunda olmaq pis deyil. Amma insanlar hətta döyüşəndə belə bunu nəyinsə xatirinə edir və onların konkret umacaqları olur...

Orta statistik rus isveçlilərə, türklərə, almanlara, Napoleona, hətta Hitlerə qalib gəldi, amma azad olmadı, özü üçün layiq həyat qura bilmədi. Bəs onda nəyə lazım bu döyüşkənlik? Bunun faydası varmı?

Bilmirəm. Daha doğrusu, mən bunu anlamıram. Azadlq şərtləri sevmir, o, hər vaxt bütöv olur. 1861-ci ilə qədər Rusiya faktiki olaraq quldarlıq dövründə və ya quruluşunda yaşadı.

Sonrası nə oldu? Azad ola bildilərmi? Əsla! Dünyanın ilk totalitar dövlətini yaratdılar, təkcə özlərini bədbəxt etmədilər, bəlkə yüzlərlə xalqı eyni aqibətlə şərik etdilər.

Bəlkə Bismark da yanlış dəyərlər deyəndə məhz bunu - psevdo-patriotizmi, az qala sakral məna kəsb edən çürük etatizmi nəzərdə tuturdu?..

Ona görə də məğlubedilməzlikdən dəm vurmaq lazım deyil. Ruslar özləri özlərini məğlub ediblər və etməkdədirlər. İnsan əgər öz azadlığından imtina edirsə, onun nəyi qalır?

Bütün bəşəriyyətin qəbul etdiyi mülkiyyət institutuna sayğısızdırsa onun nəyi qalır?

Dünya Rusiyadan, daha doğrusu, SSRİ - dən qorxurdu. Səbəbi də yaxşı məlumdur. O quruluşda çoxumuzun gəncliyi keçsə də və o illər bizim üçün hətta lirik bir məzmun kəsb etsə belə, bir etirafı etmək lazım gəlir: biz xoşbəxt "kölələr" idik və bu gün də belə olaraq qalırıq.

Məhz buna görə hamı bizdən qorxurdu, çünki biz elə başqalarını da özümüz kimi "xoşbəxt" etməyə çalışırdıq...